## Əfv komissiyasının iclası olub

İndiyədək ümumilikdə 1500-dən çox müraciətə baxılıb



**Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının növbəti iclası keçirilib.**

İclasda 100-dən artıq müraciətə baxılıb.

Komissiyanın növbəti iclası aprelin 19-na təyin edilib.

*Qeyd edək ki, komissiyada indiyədək ümumilikdə 1500-dən çox müraciətə baxılıb.*



## ABŞ Ermənistana sanksiya tətbiq edib

**ABŞ Ticarət Departamenti Ermənistan da daxil olmaqla 10 ölkədən 28 firmanın ixracına məhdudiyyətlər qoyub.**

Bu barədə Departamentin son presrelizində bildirilib. Sənəddə göstərilir ki, sözügedən şirkətlər Rusiya Silahlı Qüvvələrinə və hərbi-sənaye kompleksinə ABŞ sanksiyalarından yan keçməyə şərait yaradıb.


№ 63 (5824) 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 13 aprel 2023-cü il (cümə axşamı)






## Bakıda tarix-memarlıq abidəsinə müdaxilə edilib

Faktla bağlı qanuna müvafiq tədbirlər görülməkdədir

**Bakı şəhəri, Səbail rayonu, Rəsul Rza küçəsi, 11 ünvanında yerləşən 3306 inventar nömrəli yerli əhəmiyyətli tarix-memarlıq abidəsinə müdaxilə olunub.**

Bu barədə "Şərq"ə Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətindən bildirilib.

"Tarixi abidə olan yaşayış binasında qanunsuz təmir işlərinin aparıldığı aşkar edilib. Müdaxilə faktının qarşısı Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Bakı Regional İdarəsi və Səbail Rayon İcra Hakimiyyətinin əməkdaşları tərəfindən alınıb. Müdaxilə faktı ilə bağlı qanuna müvafiq tədbirlər görülməkdədir.



## Mirzoyan yaxın vaxtlarda Ceyhun Bayramovla görüşəcək

Ermənistanın XİN rəhbəri bunu parlamentdə çıxışı zamanı deyib

**"Ermənistan Azərbaycan tərəfi ilə təmasları bərpa etməyə hazırdır".**

"Report" "Sputnik-Armenia"ya istinadən xəbər verir ki, bunu ölkənin xarici işlər naziri Ararat Mirzoyan parlamentdə çıxışı zamanı deyib.

"Birbaşa təmasların dayandırılmasına baxmayaraq, danışıqlar prosesi heç vaxt dayanmayıb. Bu müddət ərzində tərəflər bir neçə dəfə sülh müqaviləsinin mətni ilə bağlı təkliflər mübadiləsi aparıblar", - nazir bildirib.

A.Mirzoyan, həmçinin yaxın vaxtlarda Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla görüşəcəyini deyib.

O xatırladıb ki, İrəvanla Bakı arasında təmaslar həm birbaşa, həm də üçüncü ölkələr vasitəsilə davam edir.

*Dünən Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova həftəlik brifinqdə çıxışı zamanı bildirib ki, Bakı ilə İrəvan arasında danışıqların növbəti mərhələsi Rusiyada keçiriləcək.*

## Hikmət Hacıyev İran səfiri ilə görüşüb



**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi ilə görüşüb.**

Bu barədə səfir Tvitter səhifəsində məlumat yayıb.

İran səfiri Hikmət Hacıyevlə görüşünün səmimi və konstruktiv məcrada keçdiyini vurğulayıb.

# Ceyhun Bayramov İrəvana xəbərdarlıq etdi

Ermənistan təhlükəli və təhrikedici addımlarından çəkinməlidir, bunun nəticələri ağır ola bilər





**"Ermənistanın destruktiv yanaşması nəticəsində dekabrdan bəri fiziki görüşlər olmayıb". Bunu Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Bakıda səfərdə olan ATƏT-in fəaliyyətdə olan sədri, Şimali Makedoniyanın xarici işlər naziri Buyar Osmani ilə birgə keçirdiyi mətbuat konfransında deyib.**

Nazir bildirib ki, əfsuslar olsun ki, Ermənistanın destruktiv yanaşması, ziddiyyətli addımların atılması ilə məhdudlaşmır. Biz həm də hərbi-siyasi təxribatların şahidi oluruq ki, ən son belə təxribat dünən baş verib. Ceyhun Bayramov ATƏT-in fəaliyyətdə olan sədri Buyar Osmani ilə Ermənistanın qeyri-konstruktiv siyasətini müzakirə etdiklərini bildirib: "Biz keçmiş münaqişənin nəticələrinin aradan qaldırılması ilə bağlı Azərbaycanın səylərini müzakirə etdik. Normallaşma prosesi ilə bağlı formatlar və atılmış addımlar barədə məlumat verdik. Azərbaycanın sülh müqaviləsi üzrə baza prinsipləri və danışıqlarının aparılmasına diqqət yetirildi. Dekabrdan bəri Ermənistanın destruktiv yanaşması nəticəsində fiziki görüşlər olmayıb. Beynəlxalq tərəflər Ermənistanın danışıqlar masasına dönməsi üçün intensiv addımlar atır".

(səh.3)

# Dəniz suyundan içməli su istehsal ediləcək

Ekspert deyib ki, vəziyyətdən əsas çıxış yollarından biri bu layihə idi



**Prezident İlham Əliyev "Dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihənin həyata keçirilməsi tədbirləri haqqında" Sərəncam imzalayıb.**

Sərəncam "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 iyul tarixli 2178 nömrəli Sərəncamının icrası, ölkənin su təhlükəsizliyi, əhalinin içməli su ilə təminatının artırılması və bu sahəyə yeni texnologiyaların cəlb edilməsi məqsədilə imzalanıb. Sərəncama əsasən, Bakı şəhərinin və ətraf ərazilərin su təminatının yaxşılaşdırılması üçün dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihə həyata keçiriləcək.

(səh.2)



## Paşinyandan etiraf

Ermənistan Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyıb

**Ermənistan Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıyıb.**

Bunu Ermənistanın Baş naziri Nikol Paşinyan parlamentdə "Hökumət saatı" zamanı çıxışında deyib.

"Əgər Madrid prinsiplərindən əvvəl Qarabağın öz müqəddəratını təyinetmə yeri SSRİ idisə, Madrid prinsiplərindən sonra Ermənistan tərəfinin "parlaq" diplomatiyası nəticəsində Azərbaycan Qarabağın öz müqəddəratını təyin etdiyi məkana çevrildi", - Paşinyan bildirib.

(səh.3)

## 1 nəfər vəfat edib

108 yeni yoluxma faktı qeydə alınıb





**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 108 yeni yoluxma faktı qeydə alınıb, 96 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 1 nəfəri vəfat edib. Azərbaycanda indiyədək ümumilikdə 830 531 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib.

## Valideynlər peyvənddən ilan vuran kimi qorxurlar

Ona görə bağçayaşlı uşaqlar, məktəb şagirdləri tez-tez xəstələnir



**Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi - TƏBİB uşaq sağlamlığının qorunmasına dair qurumun tabeliyində olan tibb müəssisələrinin direktorları, struktur bölmə rəhbərlərinin iştirakı ilə geniş müşavirə keçirib.**

Müşavirədə uşaqların sağlamlığının qorunması istiqamətində həyata keçirilən tədbirlər və planlaşdırılan işlərdən danışılıb. Ana və uşaq sağlamlığı şöbəsinin böyük məsləhətçisi Şəbnəm Şahgəldiyeva uşaqların icbari dispanzerizasiyadan keçirilməsi sahəsində görülən işlər barədə məlumat verərək onlar arasında rutin immunizasiyanın önəmini qeyd edib.

(səh.5)



## Təhlükəsizliyini polislər qoruyur

Fazil Mustafanın işə nə zaman çıxacağı bəlli deyil

(səh.4)



## Destruktiv qruplar geniş təbliğata başlayıblar

Ceyhun Məmmədov: "Azərbaycanda guya, "dindarların" kütləvi həbsi həyata keçirilir"

(səh.3)

# Ermənistan sərhəddə təxribatı məqsədyönlü şəkildə törədib

## Prezident İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədrini məlumatlandırıb



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Şimali Makedoniya Respublikasının xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Buyar Osmanini qəbul edib.**

Dövlətimizin başçısı beynəlxalq tədbirlər əsnasında Şimali Makedoniyanın Prezidenti və Baş naziri ilə olan təmaslarını məmnuniyyətlə xatırlayıb.

Qəbula görə təşəkkürünü bildirən Buyar Osmani ATƏT-in fəaliyyətdə olan sədri kimi Şimali Makedoniyanın prioritetləri barədə dövlətimizin başçısına məlumat verib. Bildirib ki, Şimali Makedoniya sədrliyi çərçivəsində ”Hər şey insanlar üçün” konsepsiyasını əsas götürüb və sədrlik prosesində də bu əsasda insanlara köklənən siyasətin həyata keçirilməsi istiqamətində çalışıb. O, ATƏT-in Şimali Makedoniyaya üzv dövlət kimi verdiyi dəstəyini xatırladaraq, hazırda ölkəsinin bu təşkilatın gündəliyində duran məsələlərin həllinə öz töhfəsini verməyə çalışdığını deyib. Bu baxımdan Şimali Makedoniyada daxili siyasətdə ”Hamı üçün vahid cəmiyyət” konsepsiyasından çıxış etdiyini bildirib, ölkə daxilində və regionda postmünaqişə şəraitində barışığın təmin olunması istiqamətində həyata keçirilən layihələr barədə məlumat verib. Bu xüsusda ölkəsinin əldə etdiyi təcrübəni Cənubi Qafqaz regionu ilə də bölüşməyə hazır olduğunu diqqətə çatdırıb.

Azərbaycan Prezidenti Şimali Makedoniyanın və ümumilikdə Balkan regionunun etnik barışıq konsepsiyasının, reinteqrasiya və inklüziv cəmiyyətin yaradılması təcrübəsinin Cənubi Qafqaz üçün də maraqlı ola biləcəyini qeyd edib. Dövlətimizin başçısı Azərbaycanın üç Cənubi Qafqaz ölkəsinin bir araya gələrək görüş keçirməsi ilə bağlı təklifini xatırladıb.

Prezident İlham Əliyev Ermənistanla Azərbaycan arasında hazırda sülh prosesinin iki istiqamət üzrə həyata keçirildiyini diqqətə çatdırıb. Bu baxımdan dövlətimizin başçısı Azərbaycanın Qarabağ iqtisadi regionundan olan erməni sakinlərlə birbaşa təmasların həyata keçirilməsi istiqamətində Bakıda görüşlərin təşkil edilməsinə dair təkliflərlə çıxış etdiyini vurğulayıb və bu xüsusda Azərbaycan tərəfindən xüsusi nümayəndənin təyin edildiyini deyib. Onların Bakıya həm reinteqrasiya, həm də müxtəlif infrastruktur layihələrinin müzakirəsi məqsədilə dəvət edildiyini bildirib. Prezident İlham Əliyev, eyni zamanda Ermənistanla Azərbaycan arasında ikitərəfli əsasda sülh müqaviləsi üzrə və münasibətlərin normallaşdırılması istiqamətində danışıqların aparıldığını diqqətə çatdırıb.

Dövlətimizin başçısı dünən Ermənistan-Azərbaycan sərhədində baş vermiş insidenti qeyd edərək, bunun Ermənistan tərəfindən məqsədyönlü şəkildə törədilmiş təxribat olduğunu bildirib.

Buyar Osmani ATƏT-in Azərbaycanda humanitar minatəmizləmə, yaşıl liman və digər praktiki layihələrə töhfə verə biləcəyini qeyd edib.

Prezident İlham Əliyev Azərbaycanın ATƏT ilə əməkdaşlığına praktiki müstəvidə baxdığını qeyd etdi. Dövlətimizin başçısı bu xüsusda transsərhəd çayları üzrə birgə əməkdaşlıq, humanitar minatəmizləmə, yaşıl limanlar, Orta Dəhliz kimi konsepsiyalar üzrə praktiki və praqmatik əməkdaşlıq layihələrinin icra olunması imkanlarına baxılmasının mümkünlüyünü diqqətə çatdırıb.

Görüşdə həmçinin Azərbaycanla Şimali Makedoniya arasında nəqliyyat, enerji və qarşılıqlı maraq doğuran digər ikitərəfli əməkdaşlıq məsələləri müzakirə olunub.

# Dəniz suyundan içməli su istehsal ediləcək

## Ekspert deyib ki, vəziyyətdən əsas çıxış yollarından biri bu layihə idi



**Prezident İlham Əliyev ”Dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihənin həyata keçirilməsi tədbirləri haqqında” Sərəncam imzalayıb.**

Sərəncam ”Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 iyul tarixli 2178 nömrəli Sərəncamının icrası, ölkənin su təhlükəsizliyi, əhalinin içməli su ilə təminatının artırılması və bu sahəyə yeni texnologiyaların cəlb edilməsi məqsədilə imzalanıb.

Sərəncama əsasən, Bakı şəhərinin və ətraf ərazilərin su təminatının yaxşılaşdırılması üçün dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihə həyata keçiriləcək.

Sənədlə bağlı Nazirlər Kabineti və bir sıra qurumlara uyğun tapşırıqlar verilib.

Sosioloq Elçin Bayramlı bildirib ki, su qıtlığı, quraqlıq ilə bağlı yaranacaq vəziyyətdən əsas çıxış yollarından biri bu layihə idi: ”Əksər ölkələr uzun illərdir belə texnologiyanı tətbiq edirlər. Əhalinin, iqtisadiyyatın su təminatını həyata keçirirlər. Bir qədər baha başa gəlir. Lakin dəniz sahilində yerləşən ölkələr üçün ən ideal variantdır. Gec də olsa, işə başlanıldı. Çünki qarşıdan dünya üzrə qlobal quraqlıq, istiləşmə gəlir. Su ehtiyatları azalır.

Çirkab və ya yağış sularının istifadəsinə də diqqət ayırmalıyıq.

Hər halda layihə təqdirəlayiqdir. Yaxşı olardı ki, Xəzər sahili digər regionlarda da bir neçə içməli su istehsalı ilə məşğul olan zavodlar fəaliyyətə başlasın. Beləliklə, çaylarda, yeraltı su mənbələrində təzyiq də azalar. Xüsusilə, Bakı, Abşeron zonasında yüksək gərginlik var. Su mənbələrindən böyük həcmdə su tələb edilir. Kür çayının quruyub yoxa çıxması kritik durum yaradır. Oğuz-Qəbələ kəmərindən götürülən su həmin ərazidə ekoloji fəsada yol açır”.

E.Bayramlının fikrincə, son dövrlər suyun əldə edilməsi daha ucuz başa gəlir: ”Xəzər dənizindən istifadə məqsədəuyğundur. Alimlər, ekoloqlar dünyaya SOS çağırışlar ünvanlayır. Suya tələbat artmaqla bərabər ehtiyatlar da azalacaq. Təhlükə ilə üzləşə bilərik. Azərbaycan əhali sayına və ərazisinə nisbətdə ən az daxili su ehtiyatı olan ölkədir. 170 ölkə arasında 140-cı yerdəyik. Su ehtiyatları xarici mənbələrdən formalaşır. Qlobal quraqlıq baş versə, xaricdən su ehtiyatı gəlməyəcək. Nəhayət, dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihəyə başlanılıbsa, daha da optimallaşdırılacaq”.

**Aygün**



# "Hesabatı tam oxumaq lazımdır ki, sual verə biləsən"

## Hesablama Palatasının sədri deputatların iddialarını qəbul etməyib

**Dünən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. İclasın gündəliyinə ”Hesablama Palatasının 2022-ci ildə fəaliyyəti haqqında” hesabatı daxil edilib. Parlamentə sənədi Hesablama Palatasının sədri Vüqar Gülməmmədov təqdim edib. Komitə iclasında bəzi deputatlar hesabatla bağlı iradlarını bildiriblər.**

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli bildirib ki, biz düşmən tapdağından azad edilən əraziləri tikinti meydanından əməkdaşlıq arenasına çevirmişik. Deputat deyib ki, indiyə qədər azad edilmiş ərazilərdə tikinti-bərpa işlərinə 6,5 mlrd. manat vəsait sərf edilib, yaxın zamanda bu məbləğ 10 mlrd. manata çatdırılacaq: ”Bu istiqamətdə Hesablama Palatasının atdığı ilk addımın nəticəsi yoxdur. Hesab edirəm ki, burada vəsaitdən istifadənin səmərəliliyini artırmaq yönümündə təsirli tədbirlərin icrasında Hesablama Palatasının gücündən istifadə edilməsə, bu, gələcəkdə xeyli əlavə problemlərin yaranmasına səbəb ola bilər. Yoxlamalarla bağlı nəticələr ona görə belədir ki, Hesablama Palatası hazırkı reallıqlar şəraitində yalnız mümkün olanı edə bilir. Mümkün olanları edəndə nəticə həddən artıq aşağı olur. Ona görə ki, dövlət maliyyəsindən istifadənin səmərəlilik dərəcəsi, bu istiqamətdə olan pozuntular istənilən Azərbaycan vətəndaşına məlumdur. Onların göstəriciləri çox aşağıdır. Digər tərəfdən, qazi və şəhid ailələrinin problemlərinin həll olunması istiqamətində işlər artırılmalı və buna geniş yer ayrılmalıdır”.

Deputat Vahid Əhmədov isə deyib ki, hesabat kifayət qədər qəlizdir və mürəkkəb hazırlanıb: ”Bizim komitənin üzvləri başa düşsə də, hesabat digər deputatlar üçün olduqca çətindir. Hesabatda nöqsanlar göstərilsə də, onların nəticələri aydın qeyd olunmayıb. Eyni zamanda göstərilən nöqsanlar elədir ki, hər hesabatda yenidən təkrar edilir. Nöqsanları göstərərkən sonrakı fəaliyyət barədə məlumat verilməlidir. Bunların təkrar olması Hesablama Palatasının fəaliyyətinə kölgə salır. Ona görə də bu sahədə nəzarət gücləndirilməlidir”.

V.Əhmədov vurğulayıb ki, satınalmalar ən ağrılı yerimizdir: ”O hesabat yoxdur ki, orada satınalmalar ilə bağlı problem olmasın. İndiki hesabatda da aşkarlanan nöqsanlar 26-27 faiz təşkil edir. Özü də nöqsanlar elə nöqsanlardır ki, hər dəfə təkrarlanır, hamısı eyni məsələlərdir. Bu nöqsanların təkrar olunması Hesablama Palatasının fəaliyyətinə kölgə salır. Ciddi tədbirlər həyata keçirməliyik ki, bu problemlər aradan qaldırılsın”.

Deputat Rüfət Quliyev Hesablama Palatasının prokurorluğa göndərdiyi materialların taleyinə aydınlıq gətirməsini istəyib: ”Düzgün xərclənməyən vəsaitlə bağlı Hesablama Palatası materialları prokurorluq orqanlarına göndərəndən sonra o işin axırı necə olur? Cəmiyyətdə bilinsə ki, hansısa bir təşkilat filan qədər vəsaiti düzgün xərcləməyib, nəticəsində məhkəmə qərarı ilə müəyyən addımlar atılıb, o birilərinə də dərs olar”.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov isə bildirib ki, lazım olan hər bir şey detallı hazırlanıb: ”Milli Məclisdə hesabat verən digər qurumlar da belə əhatəli hesabat hazırlasınlar”. Palata sədri deputatların iradlarını qəbul etmədiyini söyləyib: ”Hesabatı tam oxumaq lazımdır ki, ondan sual verə biləsən. Deputat Vahid Əhmədov, Əli Məsimlinin qaldırdığı iddiaları qəbul etmirik. Bildirək ki, hər hansı dəyişiklik olmursa, burada Hesablama Palatasının günahı yoxdur. Digər tərəfdən, deyə bilərəm ki, qurumların çoxunda artıq ştat məsələləri aktualdır. Burada əsas məsələ həmin ştatların doldurulmasıdır. Biz Hesablama Palatası adından qeyd edirik ki, Milli Məclisdə də səmərəlilik artırılmalıdır, təkcə bir neçə deputat səviyyəsində yox, ümumi diqqət artırılmalıdır”.

**İsmayıl**

# Füzulidə Şəhərsalma məsələləri üzrə işçi qrupunun iclası keçirilib

## Rayonda 2026-cı ilədək 5678 ev tikilərək istismara veriləcək

**Füzuli Beynəlxalq Hava Limanının inzibati binasında Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Şəhərsalma məsələləri üzrə İşçi qrupunun iclası keçirilib.**



İclasda işğaldan azad edilmiş Füzuli şəhərində aparılan tikinti-quruculuq fəaliyyəti ilə əlaqədar layihələndirmə işləri, Mərkəzi Parkın layihələndirilməsi, ”ağıllı kənd” konsepsiyası ilə bərpaolunan Dövlətyarlı kəndində aparılan tikinti-quruculuq işləri, Füzuli şəhərinin daxili yol-küçə şəbəkəsinin layihələndirilməsi, rayonda ilkin mərhələdə bərpa ediləcək yaşayış məntəqələrinin elektrik enerjisi və su təminatı, ”Köndələnçay” su anbarının yenidən qurulması və digər məsələlər üzrə görülən işlər müzakirə olunub.

Tədbirdə Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Namiq Hümmətov, Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdir müavini Nüsrət Süleymanov, Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev, Qarabağ iqtisadi rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin icraçı direktoru Övsət Həmidov, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin şöbə müdiri İlham Süleymanov, ”Azərişıq” ASC-nin Texniki departamentinin direktoru Vüsal Qənbərov, ”Azərsu” ASC-nin Planlaşdırma və layihələndirmə departamentinin rəisi Bahadır Kəngərli, ”Meliorasiya və Su Təsərrüfatı” ASC-nin İnvestisiyalar və layihələrin idarə olunması şöbəsinin baş məsləhətçisi Elmar Orucov və aidiyyəti qurumların nümayəndələri iştirak ediblər.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Namiq Hümmətov çıxışında bildirib ki, son illərdə işğaldan azad olunmuş ərazilərdə bərpa-quruculuq istiqamətində böyük irəliləyişlər əldə edilib. Qarabağ və Şərqi Zəngəzurun şəhər, qəsəbə və kəndlərinə Böyük Qayıdış həyata keçirilir. Bu prosesi sürətləndirmək, yaşayış məntəqələrinin gələcəkdə sakinlər üçün daha rahat etmək üçün işğaldan azad olunmuş torpaqlarımızda bu gün milli xüsusiyyətlər nəzərə alınmaqla, qabaqcıl şəhərsalma standartlarına uyğun yenidənqurma və quruculuq işləri aparılır.

Çıxışlarda qeyd olunub ki, işçi qrupunun fevralın 16-da Ağdam şəhərində keçirilmiş iclasının nəticəsi protokollaşdırılaraq qrup üzvlərinə təqdim edilib. Həmin protokola əsasən Ağdam şəhərinin yol-küçə şəbəkəsinin 58,7 kilometr hissəsinin, eləcə də rayonun Xıdırlı, Kəngərli və Sarıcalı kəndlərinin yaşayış məntəqələrinin layihə-smeta sənədlərinə dair müvafiq ekspertiza rəyinin verilməsi üçün Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinə rəsmi müraciət ünvanlanıb.

Bildirilib ki, ötən müddət ərzində işğaldan azad edilmiş bütün ərazilər kimi, Füzuli rayonunda da genişmiqyaslı abadlıq-quruculuq işləri həyata keçirilib. Qısa müddət ərzində ən yüksək beynəlxalq standartlara cavab verən hava limanı inşa edilərək istismara verilib, Zəfər yolunun tikintisi yekunlaşıb, Füzuli yarımstansiyası və Rəqəmsal İdarəetmə Mərkəzi tikilib. Həmçinin Özbəkistan tərəfindən inşa edilən tam orta məktəb binasının, Qazaxıstan tərəfindən inşa edilən Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzinin, Mənzil İnşaatı Dövlət Agentliyinin inşa etdiyi yaşayış məhəlləsinin və s. obyektlərin tikintisi sürətlə davam etdirilir.

Həmçinin Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən Füzuli rayonunun ərazi-planlama sənədlərinin hazırlanması çərçivəsində əhəmiyyətli işlər görülüb. Bu il martın 18-də Füzuli şəhərinin Baş planı Nazirlər Kabineti tərəfindən təsdiqlənib. 2022-2026-cı illərdə bərpaolunan yaşayış məntəqələri üzrə ”ağıllı kənd” konsepsiyası ilə yenidən qurulacaq Dövlətyarlı kəndinin şəhərsalma əsaslandırılması təsdiqlənib, Pirəhmədli və Dədəli kəndlərinin konsepsiyası hazırlanıb və həmin sənədlərin də qısa müddət ərzində təsdiq edilməsi təmin olunacaq. Dövlətyarlı kəndində tikinti işlərinin avqust ayında, Pirəhmədli və Dədəli kəndlərində isə oktyabr ayında başlanılması planlaşdırılır. 2023-cü ildə Füzuli rayonunda daha 7 kəndin - Qarğabazar, Cuvarlı, Qoçəhmədli, Qarakollu, Qaraxanbəyli, Horadiz və Mirzəcamallı kəndlərinin layihələndirilməsi nəzərdə tutulur.

Bərpaolunan yaşayış məntəqələrinin küçə-yol şəbəkəsinin qurulması istiqamətində Füzuli şəhərində ümumi uzunluğu 87,55 kilometr olan yol-küçə şəbəkəsinin 18,46 kilometrlik hissəsi üzrə Fövqəladə Hallar Nazirliyinin Dövlət Ekspertiza Baş İdarəsinə təqdim edilib.

Yaşayış məntəqələrinin minalardan təmizlənməsi istiqamətində 2022-ci ildə 1536.8 hektar ərazi minalardan təmizlənib. Cari ildə rayonda yaşayış məntəqələrinin əraziləri üzrə ümumilikdə 2620,9 hektar ərazinin təmizlənməsi nəzərdə tutulub. Cari ilin I rübü ərzində rayon üzrə 622,97 hektar (23,7%) ərazinin minalardan təmizlənməsi artıq həyata keçirilib.

Diqqətə çatdırılıb ki, Füzuli rayonunda 2026-cı ilədək ümumilikdə 5678 evin - 3352 fərdi yaşayış evinin və 2326 mənzilin tikilərək istismara verilməsi nəzərdə tutulur. Ümumilikdə, 2023-cü ildə 399, 2024-cü ildə 447, 2025-ci ildə 2317, 2026-cı ildə 2515 evin inşası həyata keçiriləcək. MİDA tərəfindən inşa olunan 846 mənzillik yaşayış kompleksinə 2024-cü ildə ilk əhali qrupu (2904 nəfər) köçürüləcək. Bütövlükdə tikiləcək evlərə 21593 nəfər, o cümlədən Füzuli şəhərinə 8009 nəfər əhalinin köçürülməsi planlaşdırılır.

Bundan əlavə, Füzuli rayonunda Peşə Liseyinin, Mərkəzi xəstəxananın, Mərkəzi parkın, inzibati binanın layihələndirmə işləri sürətlə davam etdirilir.

Sonra ”İşğaldan azad edilmiş ərazilərdə əhalinin dayanıqlı məşğulluğunun təmin edilməsinə dair” Tədbirlər Planı, müvəqqəti yerləşdirilən kamplar, ”Böyükbəhmənli-Şuşa” və ”Azadqaraqoyunlu-Ağdam” magistral qaz kəmərlərinin layihələndirilməsi, Füzuli rayonunda su anbarlarının və sutəmizləyici qurğularının layihələndirilməsi və tikilməsinin vəziyyəti, Mədəniyyət Nazirliyinin Qələbə parkı və Memorial parkının layihələndirilməsi vəziyyəti barədə müzakirələr aparılıb.

Müzakirələrdən sonra ərazidə aparılan bir sıra tikinti-bərpa işləri ilə tanışlıq olub. Qazaxıstan tərəfindən inşa edilən Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzinə, şəhər mərkəzdə tikilən çoxmənzilli binalara, həmçinin Özbəkistan tərəfindən inşa olunan 960 şagird yerlik orta məktəb binasında aparılan işlərə baxış keçirilib.

# Ceyhun Bayramov İrəvana xəbərdarlıq etdi

## Ermənistan təhlükəli və təhrikedici addımlarından çəkinməlidir, bunun nəticələri ağır ola bilər




**”Ermənistanın destruktiv yanaşması nəticəsində dekabrdan bəri fiziki görüşlər olmayıb”. Bunu Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov Bakıda səfərdə olan ATƏT-in fəaliyyətdə olan sədri, Şimali Makedoniyanın xarici işlər naziri Buyar Osmani ilə birgə keçirdiyi mətbuat konfransında deyib.**

Nazir bildirib ki, əfsuslar olsun ki, Ermənistanın destruktiv yanaşması, ziddiyyətli addımların atılması ilə məhdudlaşmır. Biz həm də hərbi-siyasi təxribatların şahidi oluruq ki, ən son belə təxribat dünən baş verib. Ceyhun Bayramov ATƏT-in fəaliyyətdə olan sədri Buyar Osmani ilə Ermənistanın qeyri-konstruktiv siyasətini müzakirə etdiklərini bildirib: ”Biz keçmiş münaqişənin nəticələrinin aradan qaldırılması ilə bağlı Azərbaycanın səylərini müzakirə etdik. Normallaşma prosesi ilə bağlı formatlar və atılmış addımlar barədə məlumat verdik. Azərbaycanın sülh müqaviləsi üzrə baza prinsipləri və danışıqlarının aparılmasına diqqət yetirildi. Dekabrdan bəri Ermənistanın destruktiv yanaşması nəticəsində fiziki görüşlər olmayıb. Beynəlxalq tərəflər Ermənistanın danışıqlar masasına dönməsi üçün intensiv addımlar atır”.

### "Azərbaycanın mövqeyi prinsipial və ardıcıl olub"

**Nazir Azərbaycanın ATƏT-də iştirakçı ölkə olaraq fəal rol oynadığını deyib:** ”ATƏT Avropada təhlükəsizlik arxitekturasının vacib sütunlarındandır. ATƏT çərçivəsində bir sıra ölkələr arasında münasibətlər böhran içindədir və Şimali Makedoniyanın sədrliyi çətin dövrə təsadüf edir. Azərbaycan digər ATƏT üzvü tərəfindən təcavüzə məruz qalıb, uzun illər bu təcavüzün ağrılı nəticələri olub. Bütün bunlara baxmayaraq, təşkilatın prinsiplərinə, ərazi bütövlüyü, suverenlik və sərhədlərin toxunulmazlığı prinsiplərinə sadiq olub. Azərbaycanın mövqeyi prinsipial və ardıcıl olub”. Tərəflərin görüşdə təşkilatın qarşısında duran vəzifələrinin, əməkdaşlıq perspektivlərinin müzakirə edildiyini deyib: ”Sədrliyin prioritetləri sırasında vacib məqamlar var ki, bura kibertəhlükəsizlik, minalardan təmizlənmə, iqlim dəyişikliyi, enerji təhlükəsizliyi daxildir. Şimali Makedoniyanın sədrliyi kontekstində ATƏT fəal addımlar atacaq, üzv ölkələr əməkdaşlıqdan tam həcmdə faydalanacaq”.

### "Ermənistanın reinteqrasiya prosesinə müdaxiləsi qəbuledilməzdir"

**Nazir Ermənistanın erməni əsilli şəxslərin Azərbaycan cəmiyyətinə reinteqrasiyası prosesinə müdaxiləsinin əsassız olduğunu deyib:** ”ATƏT-in fəaliyyətdə olan sədrini erməni əsilli şəxslərin Azərbaycan cəmiyyətinə reinteqrasiyası, Azərbaycanın baxışı və bu istiqamətdə atılan addımlar, keçirilən görüşlər və bu görüşlərin davamlı olması üçün Azərbaycan hökuməti tərəfindən görüşlərin Bakıda keçilməsi təklifi barədə məlumatlandırdım. Ermənistanın reinteqrasiya prosesinə cəhdlərinin müdaxiləsinin əsası yoxdur və bu, qəbuledilməzdir. Azərbaycan üçün əsas prioritet olan məsələlər - vətəndaşlarımızın dəbə-baba torpaqlarına qayıtma hüququ, yenidənqurma işləri barədə məlumat verdim. Bu yolda olan çətinliklər, mina təhlükəsinin çox sayda insanların həyatına son qoyması, mina xəritələrinin Ermənistan tərəfindən tam təqdim olunmaması, Ermənistan tərəfindən azad olunmuş ərazilərə yeni minaların yerləşdirilməsi kimi məsələlər danışıqların mövzusu olub”.

### "Azərbaycan cəmiyyəti ATƏT-i münaqişələrlə məşğul olan təşkilat kimi qəbul edir"

**Ceyhun Bayramov Azərbaycan və ATƏT arasında geniş əməkdaşlıq imkanlarının olduğunu deyib:** ”ATƏT daxilində müxtəlif əməkdaşlıq imkanları var. Münaqişənin tarixini nəzərə alaraq Azərbaycan cəmiyyəti ATƏT-i münaqişələrlə məşğul olan təşkilat kimi qəbul edir. Ancaq ATƏT-də əməkdaşlıq imkanları genişdir. Mina təmizlənməsi, ekoloji istiqamətdə əməkdaşlıq imkanları var”. Nazir Makedoniyanın sədrliyinin ATƏT-in dialoq platformasında rolunu canlandıracağına ümid etdiyini və bu istiqamətdə Azərbaycanın əlindən gələn dəstəyi verəcəyini deyib.

### "Erməni korpus komandirinin təxribat yerində olması göstərir ki, bu, onların göstərişi ilə həyata keçirilib"

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov deyib ki, Ermənistan və Azərbaycan münasibətlərinin normallaşması istiqamətində müsbət addımlar atılanda Ermənistan tərəfindən siyasi və hərbi təxribatlara şahid oluruq.

Nazir qeyd edib ki, bu, ilk hal deyil: ”Azərbaycan tərəfi məsələni araşdırır, ancaq ilkin rəylərə əsaslansaq, aydın olur ki, bu, planlaşdırılmış təxribat idi. Korpus komandirinin orada olması göstərir ki, bu, onların göstərişi ilə həyata keçirilib, bu, adi hərbçinin qərarı deyildi. Bu, bir daha onu göstərir ki, bu təxribatın arxasında plan olub”. Xarici işlər naziri onu da vurğulayıb ki, təxribat baş verən yerə yaxın ərazilərdə sürətli quruculuq işləri gedir: ”Bu təxribatların törədilməsi bizim vətəndaşlarımızın azad olunmuş ərazilərə qayıtmasına mane olmaq istiqamətində atılan addım kimi başa düşülə bilər. Ermənistan bu təhlükəli və təhrikedici addımlarından çəkinməlidir, bunun nəticələri Ermənistan üçün ağır ola bilər, necə ki, oldu”.

### "Dayanıqlı sülh təmin olmalıdır"

ATƏT-in fəaliyyətdə olan sədri, Şimali Makedoniyanın xarici işlər naziri Buyar Osmani deyib ki, ATƏT-in baxışı inklüziv və əhatəli olmalıdır: ”Avropa regionunda konsensus əsasında ölkələrin ərazi bütövlüyünün təmin olması ilə ATƏT öz potensialı və resurslarından istifadə edərək təhlükəsizliyi təmin etməlidir. Azərbaycan kimi ökələrin rolu burda böyükdür”. Onun sözlərinə görə, həm Azərbaycan, həm də regionda yaşayanlar üçün dayanıqlı sülh təmin olmalıdır:

”Bütün tərəfləri sülh əsaslı mexanizmlərdən istifadə etməyə çağırıram. Azərbaycan və Ermənistan arasındakı və digər münaqişələr sülhlə həll olunmalıdır. İkitərəfli münasibətlər davam edir, delimitasiya və demarkasiya prosesi gedir, ATƏT sədri olaraq sülhü təşviq edən təşəbbüsləri dəstəkləyirəm. Mənim Bakıdan mesajım odur ki, biz bu çağırışları, çətinlikləri yaşamışıq. Biz bilirik ki, bu necə ağrılıdır, Şimali Makedoniya mürəkkəb çağırışları dəf etməyə nail olub. Biz öyrəndik ki, bu münaqişələr nə qədər çətin olsa da, dialoqa mane olan hallar dəf oluna bilər, biz insanlarımızı qoruya bilərik. Etibarlılığın yaradılması, döyüş meydanından uzaqlaşmağa, danışıqlar masasına yaxın olmağa çağırırıq. Biz, ATƏT sədri olaraq tərəflərə yardım etmək istiqamətində işləməyə çağırırıq. İkitərəfli əlaqələrimizə gəlincə, biz işgüzar münasibətlərimizi, xalqlarımız arasında münasibətləri gücləndirməliyik”.

### "Ermənistan və Azərbaycan arasında sülh vacibdir"

**Buyar Osmani Azərbaycan və Ermənistanı de-eskalasiyaya çağırıb:** ”ATƏT tərəflər arasında kommunikasiyanın mümkün olması, belə toqquşmaların qarşısının alınması üçün öz resurslarını təklif edə bilər. Biz əlimizdəki bütün imkanları təqdim edəcəyik ki, dialoq və kommunikasiya mümkün olsun. İki ölkə arasında sülh vacibdir, hər iki ölkə sülhə layiqdir”.

### "Mina təhlükəsi ilə bağlı gələcəkdə təşəbbüslər formalaşdıracağıq"

**ATƏT-in fəaliyyətdə olan sədri Buyar Osmani deyib ki, mina təhlükəsi ətraflı müzakirə etdiyimiz mövzulardan biridir:** ”Biz Skopyada və Vyanda lazımi layihələri inkişaf etdirməliyik ki, minatəmizləmə işləri, mina təhlükəsi xəbərdarlığı ilə bağlı dəstək verək. Bu, razılaşdığımız məqamlardan biridir, bununla bağlı gələcəkdə təşəbbüslər formalaşdıracağıq”.

**İsmayıl**

# İranın Ermənistanı silahlandırdığı gözlənilən idi

## Laçın istiqamətində hərbçilərimiz İran istehsalı olan hərbi texnikalar vasitəsilə atəşə tutulub

**Ermənistan Silahlı Qüvvələri Azərbaycan hərbçilərinin mövqelərinə atəş zamanı İranın zenit-raket komplekslərindən istifadə ediblər. Bildirilib ki, Ermənistan ilk dəfədir İran PUA-larından yararlanıb. İranın Azərbaycanla sərhəddə qoşun toplamasının ardından Ermənistanın bu ölkənin PUA-larına öz hava məkanını açdığına dair xəbərlər yayılmışdı.**



İran İslam İnqilabı Korpusunun (SEPAH) ”Telegram” kanalları da açıqlama yaymışdı ki, ötən gün baş verən insidentin ardınca Ermənistanla sərhədə İran PUA-ları göndərilib. İran PUA-larının Azərbaycan və Ermənistanla sərhədə gəldikləri və buradan topladıqları kəşfiyyat məlumatlarını Ermənistana ötürəcəkləri şübhə doğurmur.

**”Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, İranın Ermənistanı silahlandırdığı gözlənilən idi. Ekspertin sözlərinə görə, Ukraynaya qarşı işğalçı müharibəni genişləndirmək üçün Rusiyaya pilotsuz uçuş aparatları və raket qurğuları verən İran eyni silahları strateji tərəfdaşı Ermənistana da ötürüb:** ”Gələn xəbərlərə görə, Ermənistan Laçın istiqamətində hərbçilərimizi İran istehsalı olan hərbi texnikaların vasitəsilə atəşə tutub. Bizə təmas xəttində istehkamlarımızı qurmağa mane olmağa çalışırlar. İki gün əvvəl Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanı Tehrana çağıran İranın Ali Təhlükəsizlik Şurasının katibi Əli Şamxaninin erməni həmkarına lazımi təlimatlar verdiyi aşkardır. Görüşdən sonra ”Cənubi Qafqaz regionunda istənilən coğrafi dəyişikliyin əleyhinəyik” deyən Əli Şamxani Armen Qriqoryanı Azərbaycan əleyhinə gərəkli addımlara ”cəsarətləndirib”.

Qriqoryan da bu təlimatları Baş nazir Nikol Paşinyana və ordu rəhbərliyinə çatdırıb. Ermənistan və Qarabağ separatçıları Rusiya və İranın Azərbaycana qarşı istifadə etdikləri alətlərdir. Halbuki İkinci Qarabağ müharibəsindən və ötənilki sentyabr döyüşlərindən sonra Ermənistan Azərbaycana qarşı istənilən təxribatdan çəkinməliydi. Çəkinmirlərsə, deməк, onları qızışdıranlar var. Bunun nəticəsidir ki, Ermənistan nə Azərbaycanla sülh sazişi imzalamaq istəyir, nə sərhədin müəyyənləşməsiylə bağlı danışıqlara başlayır, nə də Zəngəzur dəhlizini açmağa həvəs göstərir. Biz isə təmas xəttində möhkəmlənməli və Qarabağın tamamında ərazi bütövlüyü və suverenliyimizin bərpası çalışmalarını davan etdirməliyik. Başqa alternativimiz yoxdur”.

**İsmayıl Qocayev**

# Paşinyandan etiraf

## Ermənistan Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyıb

**Ermənistan Qarabağı Azərbaycanın bir hissəsi kimi tanıyıb.**



Bunu Ermənistanın Baş naziri Nikol Paşinyan parlamentdə ”Hökumət saatı” zamanı çıxışında deyib.

”Əgər Madrid prinsiplərindən əvvəl Qarabağın öz müqəddəratını təyinetmə yeri SSRİ idisə, Madrid prinsiplərindən sonra Ermənistan tərəfinin ”parlaq” diplomatiyası nəticəsində Azərbaycan Qarabağın öz müqəddəratını təyin etdiyi məkana çevrildi”, - Paşinyan bildirib.

Onun sözlərinə görə, Madrid prinsiplərinə əsasən, Ermənistan Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyıb və onlar ”bu gün həmin sənədin meyvələrini yığırlar”.

”Bizim səhvimiz bu oldu ki, bunu hələ 2018-ci ilin mayında deməli idik, lakin fikirləşdik ki, gələcəkdə birtəhər bu tələdən çıxa bilərik. Tələ beynəlxalq səviyyədə razılaşdırıldığı üçün biz bunu edə bilmədik”, - Ermənistanın hökumət başçısı əlavə edib.

***"Bizim ən böyük səhvimiz bu barədə 2018-ci ildə xalqa izahat verməməyimizdir"***

Paşinyan qeyd edib ki, ”Madrid prinsiplərindən əvvəl Ermənistan tərəfinin mövqeyi belə idi ki, Qarabağ heç bir zaman müstəqil Azərbaycanın tərkibində olmayıb və SSRİ-nin dağılması kontekstində öz müqəddəratını təyin etmək hüququndan istifadə edir”.

”SSRİ-nin digər subyektləri, Alma-Ata Bəyannaməsində qeyd olunanlara əsasən, öz müqəddəratını təyinetmə hüququndan istifadə edib müstəqillik əldə etdilər, o cümlədən də Qarabağ və nəticədə Qarabağ SSRİ-dən ayrıldı”, - Paşinyan əlavə edib.

Baş nazir vurğulayıb ki, Madrid prinsipləri 2007-ci ildə Ermənistanda hakimiyyətin ötürülməsi zamanı Serj Sarkisyanın Baş nazir, Robert Koçaryanın isə prezident olduğu dövrdə meydana çıxıb ki, burada da ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə hüququ öz əksini tapıb: ”Bu zaman müəyyən edilib ki, Qarabağın statusu Azərbaycan tərəfindən də razılaşdırılmalı olan mexanizmlə tənzimlənməlidir və bununla da çox ciddi konseptual dəyişiklik baş verdi. Etibarlı mənbələrin məlumatlarına görə, Madrid prinsiplərin müəllifi elə erməni tərəfi olub.

Əgər biz Qarabağı Azərbaycanın bir hissəsi hesab etmiriksə, onda onun statusu məsələsi niyə Azərbaycanla razılaşdırılmalıdır?

Bu isə məntiqlə o deməkdir ki, Qarabağ öz müqəddəratını təyin etmək üçün Azərbaycanın tərkib hissəsi olmalıdır, əks halda, o, öz müqəddəratını kimdən müəyyən edir?

Beləliklə də, bizim ən böyük səhvimiz bu barədə 2018-ci ildə xalqa izahat verməməyimizdir.

Qarabağı danışıqlar prosesindən çıxaran Ermənistan sonradan ”Mən Qarabağın öz müqəddəratını təyinetmə hüququndan istifadə etməyə gəlmişəm” dedi.(apa)

Bunun cavabında isə Ermənistana dedilər ki, əgər bunu sən deyirsənsə, o zaman bu, ərazi mübahisəsidir, ərazi iddiasıdır.

Qarabağ probleminin bütün mahiyyəti deformasiyaya uğrayıb”, - Paşinyan bildirib.

# Destruktiv qruplar geniş təbliğata başlayıblar

## Ceyhun Məmmədov: ”Azərbaycanda guya, ”dindarların” kütləvi həbsi həyata keçirilir”

**Azərbaycanda İranın casus şəbəkəsinə qarşı əməliyyatlar davam edir. Bir müddət əvvəl müvafiq qurumların həyata keçirdiyi əməliyyat zamanı Bakının Binə qəsəbə sakini Əli Behişti də saxlanıldı.**



Behişti moizələrində hər zaman İranın molla rejimini təbliğ edirmiş. Xatırladaq ki, Azərbaycan hüquq-mühafizə orqanlarının İranın casus şəbəkəsinə qarşı keçirdiyi son əməliyyatlarda 19 nəfər saxlanılıb. İfşa olunmuş casus şəbəkələrinin üzvlərinin Azərbaycanda iğtişaş törətmək, dövlət çevrilişi həyata keçirmək, konstitusion quruluşu devirmək və şəriət hökmləri ilə ”Kərimə dövləti” qurmaq planları üzə çıxıb. Lakin ölkə daxilində və xaricdəki bəzi qərəzli şəxslər İran agentlərinin zərərsizləşdirilməsini ”dindarların həbsi”, ”inanclı insanlara qarşı təzyiq” kimi təqdim etməyə cəhd göstəriblər.

**Millət vəkili Ceyhun Məmmədov bildirib ki, son günlər Azərbaycanın hüquq-mühafizə orqanları İranla əlaqədə şübhəli bilinən şəxslərin həbsi istiqamətində bir sıra tədbirlər həyata keçirir.** Ancaq son proseslərdə dövlətin və dövlətçiliyin yanında ola bilməyən destruktiv qruplar geniş təbliğata başlayıblar ki, Azərbaycanda guya, ”dindarların” kütləvi həbsi həyata keçirilir. Hətta bir sıra hallarda ciddi şişirdilmiş rəqəmlər də səsləndirirlər: ”Əlbəttə, burada əsas məqsəd dindar kontingentin rəğbətini qazanmaq və özlərini onların müdafiəçisi kimi təqdim etməkdir. Bu həm də onu göstərir ki, bütün bu qruplar eyni mənbədən qidalanır və təlimatı eyni yerlərdən alırlar. Böyük ehtimal ölkəmizlə bağlı beynəlxalq təşkilatların hazırladıqları növbəti hesabatlarda da bu məsələ ilə bağlı tənqidi fikirlər yer alacaq. Burada da əsas məqsəd Azərbaycana təzyiqi artırmaq olacaq. Heç şübhəsiz ki, bu addımlar Azərbaycanın hüquq-mühafizə orqanları tərəfindən sırf təhlükəsizlik məqsədilə atılır. Dünyanın müxtəlif bölgələrində ayrı-ayrı ölkələr zaman-zaman belə tədbirləri təhlükəsizlik məqsədilə həyata keçirirlər.

Həbs olunan şəxslərin sayı, həbs olunma səbəbi və cinayətləri barədə növbəti mərhələdə ictimaiyyətə geniş və ətraflı məlumatın veriləcəyinə heç kimin şübhəsi olmasın”.

**İsmayıl**

# Avropa İttifaqı silahlı toqquşmalardan təəssüflənir

## “Bütün mübahisələrin sülh yolu ilə həllinə çağırışlarımızı təkrarlayırıq”

**”Avropa İttifaqı aprelin 12-də Ermənistan-Azərbaycan sərhədinin Dığ kəndi ərazisində bir neçə erməni və azərbaycanlı hərbçinin həlak olması və ya yaralanması ilə nəticələnən silahlı toqquşmalardan təəssüflənir”.**



”Report” xəbər verir ki, bu fikirlər Avropa İttifaqının (Aİ) bəyanatında əksini tapıb.

”Əvvəlki öhdəliklərə, 2022-ci ilin oktyabrında Praqada əldə olunmuş öhdəliklərə, 1991-ci il Almatı Bəyannaməsinə əməl edilməlidir. Aİ həmçinin sərhədin delimitasiyası ilə bağlı danışıqların intensivləşdirilməsinə çağırış edir. Biz bu prosesi dəstəkləməyə hazırıq. Biz təmkinli olmağa və bütün mübahisələrin sülh yolu ilə həllinə çağırışlarımızı təkrarlayırıq. Aİ bu səyləri ən yüksək səviyyədə dəstəkləməyə davam edir”, - bəyanatda bildirilib.

Xatırladaq ki, aprelin 11-i saat 16:20 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonu istiqamətindəki üzbəüz mövqelərini müxtəlif çaplı silahlardan istifadə etməklə atəşə tutub.

Ermənistan tərəfinin təxribatının qarşısını alarkən Azərbaycan Ordusunun üç hərbi qulluqçusu Zalov Vidadi Nizami oğlu, Həsənov Elşad Qabil oğlu və Tağıyev Səbuhi Gündüz oğlu şəhid olub.

Azərbaycan Ordusunun gördüyü cavab tədbirləri zamanı Ermənistan silahlı qüvvələrinin bölmələri xeyli sayda itki verib.

# Ərdoğan tarazlığı pozdu

## 69 yaşlı liderin seçki manifesti bütün dünyada əks-səda doğurub



**Prezident Rəcəb Tayyib Ərdoğanın Ankarada açıqladığı seçki manifesti Almaniyadan Fransaya, İngiltərədən ABŞ-yə, Yunanıstandan Qətərə qədər bütün dünyada əks-səda doğurub.**

"Şərq" qəzeti Türkiyənin "milliyet.com.tr" saytına istinad edərək dünyanın nüfuzlu nəşrlərinin Türkiyədə keçiriləcək seçki və Prezident Rəcəb Tayyib Ərdoğanın seçki vədləri ilə bağlı məqalələr dərc ediblər.

### BBC: Ərdoğan hakimiyyətdə qalmaq üçün seçki yarışına başlayır

**BBC vurğulayıb ki, Prezident Ərdoğan Türkiyədəki liderliyini 20 ildən sonra da uzatmaq istəyir. Mayın 14-də keçiriləcək seçkinin ilk turunda namizədlər səslərin yarısını ala bilməsələr, yarış iki həftə sonraya daşınacaq, yəni ikinci tura qalacaq. Qeyd olunub ki, müxalifət partiyalarının birləşməsi Ərdoğanı çətin vəziyyətdə qoyub:** "Türk seçiciləri illərdir qütbləşib, lakin 69 yaşlı Ərdoğan heç vaxt bu qədər təzyiq hiss etməyib".

### "Əl-Cəzirə": Ərdoğanın Türkiyə seçkiləri ilə bağlı manifestində iqtisadiyyat birinci yerdədir

**"Əl-Cəzirə" yazıb ki, Türkiyə lirəsinin ucuzlaşması və yüksək inflyasiyadan sonra prezident və onun partiyası problemlə üzləşib:** "Birləşmiş müxalifətin gücü, həqiqətən də, şübhə altına alınmalıdır. Həm də təkcə ona görə deyil ki, onların lideri Kamal Kılıçdaroğlu 74 yaşındadır və xarizması yoxdur, həm də ona görə ki, bu, indiyə qədər qurulmuş ən qarmaqarışıq ittifaqdır. İttifaqa sosial demokratlar, sərt millətçilər və hətta islamçılar daxildir. Onları birləşdirən tək bir şüar var: "Ərdoğan getməlidir!".

### "Kathimerini": İnflyasiyanın azaldılması Ərdoğanın seçki kampaniyasında ön plandadır

**"Kathimerini" nəşri yazır ki, Ərdoğan AKP-nin yarandığı 2002-ci ildən bəri ən böyük siyasi problemlə üzləşib.** "O, yenidən seçki təşəbbüsü irəli sürür, çıxışında "qlobal imperialistləri" və "çevriliş planlaşdıranları" pisləyir. 14 may seçkiləri "ülgüc kənarındadır" və hakim partiya indiyədək ən çətin sınaqla üzləşə bilər".

### Ərdoğan "güclü Türkiyə" vəd edir

**"L'orient-Le Jour" nəşri yazıb ki, Ərdoğan yenidən seçiləcəyi təqdirdə "güclü Türkiyə" vəd edir:** "Zəlzələnin izlərindən azad "güclü" Türkiyə doğulur. Yenidən seçilmək üçün kampaniya aparan Türkiyə Prezidenti çərşənbə axşamı partiyasının manifestini açıqlayıb".

### "Deutsche Welle": Türkiyə seçkiləri-Ərdoğanın müttəfiqləri kimlərdir?

"Türkiyədə parlament və prezident seçkiləri mayın 14-nə təyin edilib və sorğular yarışın gərgin keçəcəyini göstərir. Seçki kampaniyası Türkiyənin siyasi mənzərəsini alt-üst etmək potensialına malikdir. İyirmi il baş nazir, sonra isə prezident olduğu müddətdə Ərdoğan ölkəni ondan əvvəl heç bir siyasətçinin edə bilmədiyi formada formalaşdırıb. Bundan başqa, Ərdoğan əla taktikaçı olaraq qalır. O, 2002-ci ildən bəri heç bir seçkini uduzmayıb, 2016-cı ildə çevriliş cəhdini yatırmaqla yanaşı, kütləvi etirazları sakitləşdirir. 69 yaşlı lider bu yaxınlarda öz alyansı olan Xalq Alyansı üçün müxtəlif partiyalardan dəstək alaraq yarışda tərəzi balansını dəyişdi".

"Al-Monitor": "Türkiyə lideri Ərdoğan partiya bazası ilə bağlı vədlərini açıqladı. Prezident iqtisadi böhrandan çıxacağına söz verdi və may seçkiləri ərəfəsində yaşayış səviyyəsini yaxşılaşdıracağını dedi".

"Bloomberg": "Ərdoğanın "iqtisadi manifestində" seçkidən sonra bir neçə ipucu var. Çərşənbə axşamı prezidentin hakim partiyası tərəfindən açıqlanan seçki manifestində, əsasən, əvvəlki illərdə verilən iqtisadi vədlər əks olundu. Lakin gələn ay keçiriləcək mühüm seçkilərdən sonra siyasətin necə formalaşacağına aydınlıq gətirilmədi".

"Le Point": "Rusiya Prezidenti V.Putin seçkidən əvvəl Ərdoğan üçün kampaniya aparır. Rusiya lideri aprelin 27-də AES-in açılışı üçün Türkiyəyə səfər edərək seçkilərdən əvvəl Türkiyə liderini dəstəkləyə bilər".

İsmayıl



**Milli Məclis Heydər Əliyevin 100 illiyi ilə bağlı yubiley medalının təsis edilməsi barədə qanun layihəsini üçüncü oxunuşda təsdiq edib.**

Qeyd olunub ki, "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunun 2-ci maddəsinə "Vətən Müharibəsi Qəhrəmanı" medalı hissəsindən əvvəl "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalı məzmunda yeni hissə əlavə edilir. "Heydər Əliyev" medalı ümumi diametri 42 millimetr olan, bir-birinin üzərinə qoyulmuş iki səkkizguşəli ulduzdan ibarət olacaq. Medalın ön tərəfində hər bir guşəsi relyefli xətlərlə işlənmiş səkkizguşəli ulduzun üzərində guşələri ağ rəngli mina ilə işlənmiş səkkizguşəli ulduz yerləşdirilib. Ağ minalı səkkizguşəli ulduzun üzərində xarici və daxili çevrələrlə konturlanmış, diametri 26 millimetr olan dairəvi lövhə yerləşdirilib. Xarici və daxili çevrələrin arasında yuxarı qövs boyunca "HEYDƏR ƏLİYEV" sözləri, aşağı qövs boyunca "1923-2023" rəqəmləri yazılıb. Daxili çevrənin içərisində, mərkəzdə Heydər Əliyevin barelyefi həkk olunub. Layihəyə əsasən, yubiley medalı ilə Azərbaycan vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, Azərbaycanın və xarici ölkələrin dövlət və digər qurumlarının, beynəlxalq təşkilatların nümayəndələri aşağıdakılara görə təltif ediləcəklər. Medal döşün sol tərəfinə, Azərbaycanın digər orden və medalları olduqda ordenlərdən sonra taxılacaq. İctimaiyyət nümayəndələri hesab edirlər ki, Heydər Əliyevin 100 illiyi ilə əlaqədar yubiley medalının təsis edilməsi olduqca əhəmiyyətlidir.

# "Heydər Əliyev" medalı ilə layiqli insanlar təltif olunacaq

## Parlament üzvü vurğulayıb ki, Ulu Öndərin yüzilliyinin keçirilməsi tarixi hadisədir

**Milli Məclisin üzvü, siyasi elmlər doktoru, professor Elman Nəsirli "Şərq"ə açıqlamasında bildirib ki, Prezident İlham Əliyevin imzaladığı müvafiq Sərəncamla 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" kimi qeyd olunur. Deputatın sözlərinə görə, il ərzində Ulu Öndərlə bağlı həm ölkə daxilində, həm də xaricdə çoxsaylı tədbirlərin keçirilməsi nəzərdə tutulur:** "Artıq bu istiqamətdə bir neçə tədbir, konfrans keçirilib. O cümlədən sərgilərin keçirilməsi, diaspora təşkilatlarında tədbirlərin təşkil olunması, sənədli filmlərin çəkilişi, kitabların nəşr olunması və s. addımların atılması da nəzərdə tutulur. Eyni zamanda Parlamentdə "Heydər Əliyev" medalının təsis edilməsi ilə bağlı qanun layihəsini müzakirə etdik. Qanunda yazılıb ki, "Heydər Əliyev" medalı mükafatların düzülüşündə ordenlərdən sonra gələn ilk medal olacaq. Yeni medalların siyahısında birinci yerdə dayanacaq. Xatırladım ki, Azərbaycanda yüksək mükafatlar arasında "Heydər Əliyev" ordeni də var. Bu da ölkəmizin ən yüksək dərəcəli mükafatı sayılır. Medal isə Azərbaycanın ictimai-siyasi, mədəni həyatında, dövlətçilik fəaliyyətində xüsusi fəallığı olan, suverenliyimizin və ərazi bütövlüyümüzün qorunmasında fədakarlıq etmiş şəxslərə təqdim olunacaq. Hesab edirəm ki, "Heydər Əliyev İli" çərçivəsində belə bir medalın təsis edilməsi Ulu Öndərə olan böyük ehtiramın ifadəsidir. "Heydər Əliyev İli"ndə müəyyən şəxslərin bu medalla mükafatlandırılması çox qürurverici bir hadisə olacaq. Bu, Vətən və dövlət üçün göstərilən xidmətlərin birbaşa qiymətləndirilməsi deməkdir. Parlamentarilərimiz də çıxışlarında medalın təsis olunmasına yüksək qiymət verdilər. İnanırıq ki, layiqli insanlar bu medalla təltif olunacaq".

*Parlament üzvü vurğulayıb ki, Ulu Öndərin yüzilliyinin keçirilməsi tarixi hadisədir:* "Xoşbəxt adamlarıq ki, tarixi şəxsiyyətlə eyni dövrdə yaşamışıq və Ümummilli Liderin yüzilliyini qeyd etmək bizə nəsib olub. Nə qədər ki, Azərbaycan dövləti, xalqı var, hər zaman Ulu Öndər Heydər Əliyev olacaq. Belə şəxsiyyətlərin ömrü əslində mənsub olduqları xalqların ömrü qədərdir. Ona görə də bu gün hər bir azərbaycanlı öz qəlbində Ulu Öndərin əbədi heykəlini qoyub. Minnətdarlıq hissimiz əməli işlərimizdə olmalıdır".

İsmayıl Qocayev

# Laçındakı toqquşmanın arxasında Kreml dayanır

## Rus sülhməramlıları və qanunsuz erməni silahlı dəstələri torpaqlarımızı tərk etmədikcə, qarşıdurmalar qaçılmaz olacaq





**Ermənistan tərəfi növbəti dəfə təxribat törədib. Düşmənin silahlı qüvvələri aprelin 11-də Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonu istiqamətindəki üzbəüz mövqelərini müxtəlif çaplı silahlardan istifadə etməklə atəşə tutub. Daha sonra qarşı tərəf minaatan və iriçaplı silahlardan da istifadə etməklə mövqelərimizi atəşə məruz qoyub. Hərbi qulluqçularımızın sayıqlığı nəticəsində Ermənistan tərəfinin təxribatının qarşısı qətiyyətlə alınıb və atəş mövqeləri susdurulub. Görülən cavab tədbirləri zamanı Ermənistan silahlı qüvvələrinin bölmələri xeyli sayda itki verib.**

Hazırda qeyd olunan istiqamətdə nisbi sakitlikdir, əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır. Ermənistan tərəfinin təxribatının qarşısını alarkən Azərbaycan Ordusunun hərbi qulluqçuları Zalov Vidadi Nizami oğlu, Həsənov Elşad Qabil oğlu və Tağıyev Səbuhi Gündüz oğlu şəhid olublar. Siyasi şərhçilər vurğulayıblar ki, Ermənistanın hərbi təxribatlardan əl çəkməməsi İrəvanın sülh prosesində maraqlı olmadığını, işğalçılıq niyyətindən əl çəkmədiyini bir daha sübut edir. Ermənistan beynəlxalq hüququn və beynəlxalq humanitar hüququn norma və prinsiplərini kobud şəkildə pozmaqla regionda sülh prosesinə maneə törədir. Analitiklərə görə, indiki həssas məqamda sərhədlərin müəyyənləşdirilməsindən danışıldığı, Laçın yolunun başlanğıcında post quraşdırılması mərhələsində bu təxribatın baş verməsi təsadüfi deyil. Ermənistan buna öncədən hazırlanıb və təhrik edilib. Ermənistanın bu təxribatı Rusiyanın təsiri, təhriki ilə törədə biləcəyinə dair iddialar da var. Digər versiya isə odur ki, ermənilər bu təxribatı törətməklə "təhdid altında" olduqlarına dair görüntü yaratmaq niyyəti güdürlər. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib ki, sərhəddə baş verənlər Bakı və İrəvanın qarşılıqlı olaraq təmkin göstərməsinin vacibliyini təsdiq edir. Onun sözlərinə görə, baş verənlər Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli razılaşmalarına riayət edilməsinin vacibliyini göstərir.

**Ermənistanın növbəti təxribatını "Şərq"ə dəyərləndirən hərbi ekspert, ehtiyatda olan polkovnik Üzeyir Cəfərov bildirib ki, bunun arxasında birmənalı olaraq Rusiya dayanır. Ekspert vurğulayıb ki, Rusiyanın Ermənistandakı səfiri Sergey Kopirnik bəyanat vermişdi:** "Səfirin bəyanatı ondan ibarət idi ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının "müşahidə missiyası" dərhal bölgəyə gəlmək üçün hazır vəziyyətdədir. Avropa İttifaqının "missiyası" Ermənistanda olduğu üçün Moskva da KTMT adı altında öz qoşunlarını Ermənistana, Azərbaycanla sərhədə yerləşdirmək niyyətindədir. Məqsəd yenə də aranı qarışdırmaq, problem yaratmaqdır. Ona görə də hesab edirəm ki, bu, birmənalı Rusiyanın təxribatıdır və günahkar Kremldir. Buna heç bir şübhəm yoxdur. Niyə Gorus rayonunun Dığ yaşayış məskəni seçilib? Ona görə ki, orada Laçın istiqamətində açıq mövqelərimiz var. Təxribatı məhz həmin bölgədə törətmək daha rahat və asan idi. Bundan əvvəl təxribatlar Basarkeçər istiqamətindən, Şorca tərəfdən həyata keçirilirdi. Laçın istiqamətinin seçilməsində əsas məqsəd Azərbaycan tərəfi ilə açıq toqquşmaya girmək və bu hadisədən yararlanmaq olub".

**Ü.Cəfərov vurğulayıb ki, bölgədəki prosesləri kənardan izləyən beynəlxalq qurumlar onsuz da ölü vəziyyətdədir:** "Beynəlxalq təşkilatlar nə Rusiyanın, nə də Ermənistanın açıq təxribatına reaksiya vermirlər. Sözün açığı, Azərbaycan regionda baş verənlərə həddindən artıq səbr nümayiş etdirir. Çoxdan bu məsələni yekunlaşdırmalı, öz xeyrimizə bitirməliydik. Təəssüflər olsun ki, hələ də məsələ uzana-uzana gedir. Mətbuata açıqlamadığımız bəzi məqamlar var. Yəqin ki, müvafiq qurumların rəsmiləri prosesləri incələdikdən sonra müəyyən qənaətə gələcəklər. Ermənistan kənar təhriklərlə təxribata əl atdı və faciə ilə nəticələndi. Gələcəkdə bənzər halların baş verməməsi üçün aprelin 11-də yaşanmış təxribat ciddi incələnməli, təhlil olunmalıdır. Görünən odur ki, təxribatlar davam edəcək. Problem birdəfəlik həllini tapmayınca, rus sülhməramlıları və qanunsuz erməni silahlı dəstələri torpaqlarımızı tərk etmədikcə, qarşıdurmalar qaçılmaz olacaq. Azərbaycan tərəfi prinsip etibarı ilə lazım olanı edib. Digər məqsədlərimizə nail olmaq üçün tələblər irəli sürməli və onların reallaşmasına çalışmalıyıq".

İsmayıl Qocayev

# Təhlükəsizliyini polislər qoruyur

## Fazil Mustafanın işə nə zaman çıxacağı bəlli deyil

**"Təhlükəsizliyim hələ də polislər tərəfindən qorunur".**

Bu barədə lent.az-a martın 28-i sui-qəsdə məruz qalan Milli Məclisin deputatı Fazil Mustafa deyib.

"Müalicəm xəstəxanada olduğu kimi evdə də davam etdirilir. İndi yaxşıyam. Tam düzəlməyimə vaxt lazımdır. Müddət keçdikcə həm ayağımda, həm də qolumda müalicənin təsirləri görünəcək.



Təhlükəsizliyim hələ də polislər tərəfindən qorunur. Daxili İşlər Nazirliyi, həmçinin bütün dövlət qurumları bu məsələ ilə maraqlanır. İstintaq davam etdirilir" - deyə deputat qeyd edib:

Fazil Mustafa işə nə zaman çıxacağı ilə bağlı suala belə cavab verib:

"Hələ ki, müalicəm davam etdiyi üçün işə nə zaman çıxacağım bəlli deyil. Müalicəm yekunlaşandan sonra işə çıxmaq barədə düşünəcəm".

Qeyd edək ki, hadisə martın 28-i saat 21:51 radələrində paytaxtın Sabunçu rayonu, Zabrat-1 qəsəbəsi, Babək küçəsi ev 2 "Z" ünvanında qeydə alınıb. Milli Məclisin deputatı Mustafa Fazil Qəzənfər oğluna yaşadığı evin qarşısında "Kalaşnikov" avtomat silahından atəş açılaraq terror aktı törədilib. Nəticədə F.Mustafa bədənin sağ çiyin qurşağını və sağ budun aşağı üçdə birini dəlib keçən güllə yarası alıb. Ona zəruri tibbi xidmətlər göstərilib.

*Xatırladaq ki, DİN-in mətbuat xidmətindən verilən məlumata görə, Fazil Mustafaya qarşı cinayət hadisəsi ilə əlaqədar Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizlik Xidməti və Baş Prokurorluğun birgə keçirdiyi əməliyyat-axtarış, əməliyyat-istintaq tədbirləri çərçivəsində 4 nəfər müəyyən olunaraq saxlanılıb.*

# Elm sahələri üzrə Ensiklopediyalar yox səviyyəsindədir

## Bu işləri bacara bilən alimlərimiz var, lakin təşkilatçılıq yoxdur

**"Görkəmli alim və pedaqoq Abbas Zamanovun xatirəsinə həsr olunmuş tədbirdə "Məşhur insanların həyatı" seriyasından kitabların yazılması və nəşr olunması təklifini verdim".**



Bu barədə millət vəkili, təhsil eksperti Etibar Əliyev deyib. Deputat bildirib ki, hazırda gənclərin görkəmli elm adamları və dövlət xadimlərinin həyat və fəaliyyəti ilə tanışlığı üçün ardıcıl çap olunan kitablar yoxdur: "Kitabxanamızda Azərbaycan Sovet Ensiklopediyasından başqa məlumat mənbəyi yoxdur. Bu 10 cildlik kitablar artıq funksionallığını itirib. Azərbaycan Milli Ensiklopediyasının isə cəmi 9 cildi çapdan çıxıb. Dünyada belə bir təcrübə var. Xalqlar Milli Ensiklopediyalarının hər cildi çapdan çıxanda təqdimatlar keçirilir, televiziyalar və saytlar cildin təbliğatını aparırlar. Ölkədə insanlar Ensiklopediyamızın neçə cildinin çapdan çıxmasından xəbərsizdirlər. Milli Ensiklopediyamıza kimlərinsə istinad etməsinə rast gəlməmişəm. Elm sahələri üzrə də Ensiklopediyalar yox səviyyəsindədir. Bu işləri bacara bilən alimlərimiz var, lakin təşkilatçılıq yoxdur. Bəzən deyirik ki, filankəs ensiklopedik biliyə malikdir. Bu, kitabxananın hesabına baş verir. Dünyanın nəhəng alimləri və yazıçıları kitabların içində böyüyüblər. Babaları və atalarının kitabxanaları hesabına zirvələrə qalxıblar. Kitabxana varisliyi bir çox xalqlarda artıq genetik xarakter daşıyır. Hər bir nəsil babalarını və atalarını kitab vasitəsilə xatırlayırlar. Deməli, kitab həm də yaddaşdır, özü də böyük yaddaş..".

İsmayıl



# Başın sağ olsun, Vətən!

## Laçın istiqamətindəki döyüşlərdə şəhid olan hərbçilərimiz dəfn olunub



**Aprelin 11-də Ermənistan silahlı qüvvələrinin Azərbaycan Ordusunun Laçın istiqamətindəki mövqelərini atəşə tutması nəticəsində şəhid olan hərbçilərimiz dəfn olunublar. Düşmən təxribatı nəticəsində şəhid olan hərbçimiz Elşad Qabil oğlu Həsənov Ağstafa rayonunun Şəhidlər xiyabanında torpağa tapşırılıb. Şəhidin dəfn mərasimində yaxınları, rayon ictimaiyyətinin nümayəndələri, hərbçilər iştirak ediblər. Əvvəlcə şəhidin nəşi doğulduğu Xətai kəndinə, yaşadığı evə gətirilib və vida mərasimi keçirilib. Qeyd edək ki, Elşad Həsənov 3 ay əvvəl ailə qurub.**

Ötən gün Ermənistan silahlı qüvvələrinin Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən mövqelərimizi atəşə tutması nəticəsində şəhid olan hərbçi Vidadi Nizami oğlu Zalov da dəfn olunub. Şəhidin nəşi Abşeron rayonunun Saray qəsəbəsindəki Şəhidlər xiyabanında torpağa tapşırılıb. Dəfn mərasimində şəhidin yaxınları, hərbçilər, ictimaiyyət nümayəndələri iştirak ediblər. Digər şəhid hərbçimiz Səbuhi Gündüz oğlu Tağıyevin nəşi isə Naxçıvana aparılıb. Naxçıvan Beynəlxalq Hava Limanında şəhidin qarşılanma mərasimi keçirildikdən sonra şəhidimiz anadan olduğu Şahbuz rayonunun Badamlı qəsəbəsində torpağa tapşırılıb. Dəfn mərasimində şəhidin ailə üzvləri, yaxınları ilə yanaşı, rayon icra hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə və təşkilatların rəsmi şəxsləri, eləcə də ictimaiyyət nümayəndələri iştirak ediblər. Məlumat üçün bildirək ki, Səbuhi Tağıyevin ailəsi hazırda Badamlı qəsəbəsində yaşayır.

Xatırladaq ki, aprelin 11-i saat 16:20 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonu istiqamətindəki üzbəüz mövqelərini müxtəlif çaplı silahlardan istifadə etməklə atəşə tutub. Ermənistan tərəfinin təxribatının qarşısını alarkən Azərbaycan Ordusunun hərbi qulluqçuları Zalov Vidadi Nizami oğlu, Həsənov Elşad Qabil oğlu və Tağıyev Səbuhi Gündüz oğlu şəhid olublar. Ermənistan tərəfinin təxribatının qarşısını alarkən yaralanmış dörd hərbi qulluqçumuzdan ikisi əraziyə yaxın yerləşən hərbi tibb müəssisəsindən sanitar aviasiya vasitəsilə peşəkar həkimlərimizin ciddi nəzarəti altında ixtisaslaşdırılmış hərbi tibb müəssisəsinə təxliyə olunub.

**İsmayıl**

# Son təxribatlar cavabsız qalmayacaq

## Ermənistan vəziyyəti gərginləşdirərək yeni "oyunçu"ların diqqətini regiona cəlb etməyə çalışır



**"Ermənistan rəhbərliyi təxribat törətməklə öz siyasi hədəflərinə nail olmağa çalışır".**

**Bunu "Şərq"ə açıqlamasında ehtiyatda olan polkovnik Şair Ramaldanov aprelin 11-də Laçın istiqamətində Ermənistan tərəfindən törədilən təxribatlara münasibət bildirərkən deyib.**

O qeyd edib ki, prinsip cəhətdən baxsaq, son zamanlarda bu təxribatın olmasına şərait yaradılırdı: "Yəni artıq sülh müqaviləsinin bağlanması ilə bağlı danışıqlar haqqında söhbət gedirdi. Digər tərəfdən, Ermənistanla sülh müqaviləsinin bağlanması üçün Azərbaycan tərəfi cox ciddi addımlar atırdı. Laçın-Xankəndi istiqamətindəki yolların Azərbaycan Ordusu tərəfindən nəzarətə götürülməsi üçün bir sıra işlər gedirdi.

Beləliklə Ermənistan tərəfindən Azərbaycan torpaqlarına silah-sursat və canlı qüvvə daşınmasının qarşısı alındı. Həmçinin ölkə başçısının Laçın dəhlizində Azərbaycanın nəzarət mexanizminin yaradılması fikirləri də ermənilər üçün narahatlıq yaratdı. Buna görə də Ermənistan təxribata əl atdı.

Onlar sülh müqaviləsinin bağlanmasında və üçtərəfli bəyanatdan irəli gələn vəzifələrini icra etməkdən boyun qaçırmağa çalışır. Yəni atəşkəs pozulduğu zaman, məsələni araşdırmaq və yenidən danışıqlara başlamaq üçün xeyli vaxt lazım olur. Ermənistan tərəfi isə öz xeyrinə vaxt udmağa çalışır".

**Ş.Ramaldanov əlavə edib ki, bu təxribatlarla hərbi cəhətdən ermənilər heç bir uğur əldə edə bilməyəcək:** "Onlar vəziyyəti gərginləşdirərək yeni "oyunçu"ların diqqətinin regiona cəlb edilməsini planlaşdırır. Həmçinin rəsmi İrəvan KTMT-ni bölgəyə cəlb edərək onun fəaliyyətsizliyi barədə məlumat verməyi və Avropa İttifaqının Ermənistanda yerləşən missiyasının əhəmiyyətini qabartmağı hədəfləyir. Nə qədər ki, Azərbaycan-Ermənistan arasında sülh müqaviləsi imzalanmayıb və onun havadarları regiondakı vəziyyətin gərgin saxlanmasında maraqlıdır, proseslər bu formada da davam edəcək. Yəni biz hər zaman ermənilərdən gələcək təxribatlara hazır olmalı və sayıqlığı itirməməliyik. Səngərdə isə Azərbaycan Ordusu bütün əməliyyat şəraitini öz nəzarətində saxlayaraq, adekvat addımlar atmağa davam edir. Ümumiyyətlə, son təxribatların cavabsız qalmayacağını düşünürəm. Hesab edirəm ki, yaxın zamanlarda bununla bağlı müəyyən addımlar görəcəyik".

*Qeyd edək ki, aprelin 11-i saat 16:20 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Dığ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonu istiqamətindəki üzbəüz mövqelərini müxtəlif çaplı silahlardan istifadə etməklə atəşə tutub. Ermənistan tərəfinin təxribatının qarşısını alarkən Azərbaycan Ordusunun hərbi qulluqçuları Vidadi Nizami oğlu Zalov, Elşad Qabil oğlu Həsənov və Səbuhi Gündüz oğlu Tağıyev şəhid olublar.*

**Nihat Müzəffər**



# Versiyalar çoxdur

## ABŞ Ukraynanı tək buraxmaqdan ötrü informasiya əməliyyatları hazırlayır

**Rusiya-Ukrayna müharibəsi ilə bağlı ABŞ-nin məxfi sənədləri internet resurslarına sızıb. Sızan məlumatlar, fotoşəkillər, diaqramlar Ukraynanın azalan silah arsenalının təsvirini verərək onun Rusiya qarşısında çətin durumda qaldığını, eyni zamanda Rusiyanın çatışmazlıqlarını göstərir.**

Məlumatlara əsasən, sənədlərdə Ukraynanın xəritələri və qoşunların harada cəmləşdiyi, onlarda hansı silah növlərinin olması ilə bağlı qrafiklər var. Ancaq Ukraynanın Rusiya qoşunlarına qarşı başlayacağı əks-hücum əməliyyatlarının qrafiki mövcud deyil. Sənədlərin dəqiq olub-olmaması mübahisəlidir. Lakin böyük ölçüdə onların həqiqiliyi ehtimal olunur. Pentaqondan gələn "nə təsdiq, nə də təkzib" səsləri sənədlərin doğruluğuna olan inamı çoxaldır.

**Siyasi şərhçi Aqşin Kərimov deyib ki, ABŞ-də "top secret" sənədlərin qorunub-saxlanılmasında boşluqlar mövcuddur. Ona görə də sual olunur:** Sənədləri dərc edənlərin kimliyi və onların motivləri nədir? Analitikin sözlərinə görə, qaranlıq tunelə işıq tutmaq üçün ABŞ-dəki iki qurum arasındakı açıq-gizli rəqabətin ruhuna nəzər salmaq lazımdır: "ABŞ-nin xarici siyasətində Dövlət Departamenti rəsmi səylərə rəhbərlik edir. Lakin hərb aparatı Pentaqonun diplomatiya üçün daha çox pulu və işçisi var. Bu, ABŞ üçün Ukraynadakı müharibə fonunda riskli tendensiyadır. Vaşinqtonun qlobal kommunikasiyalarında ordu amilini ön plana çıxarır. Bununla da Dövlət Departamentinin diplomatik effektivliyi azalır. Sənədlərin boşluqlardan fərasətlə sızdırılması Dövlət Departamenti ilə Pentaqon arasında Rusiya-Ukrayna müharibəsi ilə bağlı yaranan fikir ayrılıqlarının nəticələri kimi başa düşülə bilər. Pentaqon Rusiya ilə kanalları açıq tutaraq onunla bir çox müzakirələr aparır. Dövlət Departamentinin bu istiqamətdəki fəaliyyəti isə ya "bloklanır", ya da səmərəsizləşir. Sənədi sızdıranın kimliyi ətrafında fikir yürüdəndə istər-istəməz diqqət Dövlət Departamenti ilə Pentaqonun üzərində cəmlənir. Lakin məxfi qovluqlardakı kağızların açıqlanması ABŞ-nin strateji maraqlarına zərbə vurmaqdan uzaqdır, bu, sadəcə, iki böyük qurum arasında xarici siyasətdəki alətləri əldə cəmləşdirmək uğrunda rəqabətə işarə edir. Yayılan sənədlər sırf hərbi kateqoriyada olduğuna görə isə onun məhz Pentaqon tərəfindən internet resurslarına ötürülməsi versiyası güclənir".

**"Bu doğrudursa, ABŞ Kiyevi tək qalmağa inandırmaq üçün əlini sızan sənədlərin üstünə qoyaraq "and içir"**

**Ekspertin qənaətincə, ümumilikdə bu məsələ Ukraynadakı müharibədə ABŞ-nin motivlərinə inamsızlıq mühiti yaratsa da, Vaşinqton öz strateji xətlərindən geri çəkilməyib:** "Sızdırılan sənədlər təkcə Ukrayna ilə bağlı deyil, həm də Vaşinqtonun bəzi digər müttəfiqlərindən bəhs edir. Sənədlərdə İsraildən Cənubi Koreyaya qədər bu ölkələrin Ukrayna və digər həssas məsələlərlə bağlı apardıqları daxili mübahisələri ortaya qoyulur. Mümkündür ki, bütün bunlar Rusiyanı yanıltmaq üçün bir oyundur. Lakin digər tərəfdən, belə versiya da ortaya çıxır ki, ABŞ Ukraynanı tək buraxmaqdan ötrü informasiya əməliyyatları hazırlayır. Bu doğrudursa, ABŞ Kiyevi tək qalmağa inandırmaq üçün əlini sızan sənədlərin üstünə qoyaraq "and içir". Lakin hesab etmək olmaz ki, sızıntılar Ukraynanın hərbi planına, o cümlədən Ukrayna qüvvələrinin çoxdan gözlənilən yaz hücumuna dərhal təsir göstərəcək. Rusiyaya gəlincə, o, sızmalardan ABŞ-nin müttəfiqləri arasında parçalanma yaratmaq üçün istifadə edəcək. Rusiya Qərb dünyasını iblis obrazı ilə müqayisə etdiyindən Moskva buna dəlillər tapmalıdır. Lakin dəlil, demək olar ki, yoxdur, ona görə də mümkündür ki, sızdırılan sənədlər Rusiyanın təhlükəsizlik qüvvələrindəki hakerlərin əməyinin məhsuludur".

**İsmayıl Qocayev**

# Valideynlər peyvənddən ilan vuran kimi qorxurlar

## Ona görə bağçayaşlı uşaqlar, məktəb şagirdləri tez-tez xəstələnir

**Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi - TƏBİB uşaq sağlamlığının qorunmasına dair qurumun tabeliyində olan tibb müəssisələrinin direktorları, struktur bölmə rəhbərlərinin iştirakı ilə geniş müşavirə keçirib. Müşavirədə uşaqların sağlamlığının qorunması istiqamətində həyata keçirilən tədbirlər və planlaşdırılan işlərdən danışılıb. Ana və uşaq sağlamlığı şöbəsinin böyük məsləhətçisi Şəbnəm Şahgəldiyeva uşaqların icbari dispanzerizasiyadan keçirilməsi sahəsində görülən işlər barədə məlumat verərək onlar arasında rutin immunizasiyanın önəmini qeyd edib.**

O, valideyn himayəsindən məhrum olan uşaqların da hər il dövlət proqramı çərçivəsində dispanserizasiya müayinələrinə cəlb edildiyini, TƏBİB-in tabeliyində fəaliyyət göstərən poliklinikalarda dispanserizasiyadan keçirildiyini vurğulayıb. Ş.Şahgəldiyeva tibbi reabilitasiyanın təşkili, patronaj xidmətinin yeni modelinin tətbiqi, "Körpə Dostu Klinikası" layihəsi haqqında ətraflı bəhs edib: "Xəstə və xəstələnmə riski olan uşaqların bərpa müalicəsinin təşkili məqsədilə 2021-ci il ərzində Uşaq Bərpa Mərkəzinə 20 min 990 müraciət daxil olub. 2 min 528 xəstəyə 23 min 526 fizioterapevtik prosedur, 1 482 xəstəyə 18 min 81 müalicəvi bədən tərbiyəsi prosedurları aparılıb". Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin baş direktorunun epidemioloji məsələlər üzrə müavini Afaq Əliyeva çıxışında respublika üzrə peyvəndləmə işlərinin təşkili və nəticələrindən bəhs edib. O, 2018-2022-ci illər üzrə profilaktik peyvəndlərin yerinə yetirilməsi statistikası barədə məlumat verib: "COVID-19 pandemiyası zamanı peyvəndləmə üzrə göstəricilər aşağı düşsə də, 2022-ci ildə yenidən peyvənd statistikasında dinamika müşahidə olunub. Peyvənd təqviminə əsasən, doğulduqdan sonrakı ilk 12 saat ərzində, 2, 3, 4, 6, 12, 18 aylıqlarda, 6 yaşında vurulmalı olan peyvəndlər var. Peyvəndlə idarə olunan xəstəliklərə isə qızılca, məxmərək, epidemik parotit, difteriya, göyöskürək, tetanus, poliomielit xəstəliklərini misal göstərə bilərəm". TƏBİB-in icraçı-direktoru Vüqar Qurbanov isə qeyd edib ki, bundan sonra da ana və uşaq sağlamlığı, immunizasiya və vaksinasiya prosesləri daim nəzarətdə saxlanılmalı və təkmilləşdirilməlidir. Bununla bağlı tabeli tibb müəssisələri rəhbərlərinə tapşırıqlar verilir. Müəssisə rəhbərləri qarşısında mövcud nöqsanların qısa zamanda aradan qaldırılması tələbi qoyulub.



***Pediatr Vaqif Qarayev: "Sonra da ah-vay edirlər ki, uşağımız xəstələnir. Xəstələnəcək də, çünki bağçada, məktəbdə də peyvənd olunmamış onun kimi 10-larla uşaq var"***

**Pediatr Vaqif Qarayev "Şərq"ə açıqlamasında körpələrin peyvəndlənməsinin vacib olduğunu vurğuladı, həkimlərlə yanaşı valideynləri də məsuliyyətli olmağa çağırdı:**

- Açıq deyirəm ki, uşaqların peyvənddən kənar qalmasının əsas səbəbkarı valideyndir. Sovet vaxtı immunizasiya məcburi idi və dövlətin strateji məqsədlərinə daxil idi. O zaman uşaqlarını peyvənddən kənar saxlayanları hətta milisə (polis) verirdilər. Təzyiq edilirdi ki, uşaqlar mütləq peyvənd olunmalıdır. Amma bu şərtlər də dəyişdi. İndi insan hüquqları, könüllülük prinsipinə üstünlük verilir. Peyvənddən imtina edən valideyn iltizam ərizəsi yazır, bununla da yaxasını kənara çəkir. Yəni sabah hansısa xəstəlik və ya ölüm halı baş versə, məsuliyyət valideynin üzərində qalır. Amma məsələnin bir başqa vacib tərəfi də var axı. Peyvəndlənməyən uşaq da bağçaya gedir, məktəbə gedir və onun başqa uşaqları yoluxdurma ehtimalı böyükdür. Görürsünüz, bağçayaşlı uşaqlar, məktəb şagirdləri tez-tez xəstələnir. Bunun bir səbəbi də vaxtında lazımi peyvəndlərin vurulmamasıdır. Valideynlər peyvənddən, ilan vuran kimi qorxurlar. Doğum evində körpəyə nə vuruldu, vuruldu. Doğum evindən çıxdısa, qurtardı. Peyvənd yada düşmür. Halbuki uşaqların peyvəndlənməsinin xüsusi qrafiki var, Səhiyyə Nazirliyi tərəfindən təsdiqlənib. Bunlar mütləq edilməlidir. Uşaqları peyvənddən yayındırırlar, sonra da ah-vay edirlər ki, uşağımız xəstələnir. Xəstələnəcək də, çünki bağçada, məktəbdə də peyvənd olunmamış onun kimi 10-larla uşaq var. Hamı bir-birini yoluxdurur.

**Pediatr peyvəndlə bağlı əhali arasında yayılan mənfi fikirlərin təsdiqini tapmadığını söylədi:**

- Yoluxucu xəstəliklərə qarşı ən effektiv üsul peyvənddir, bundan başqa hansısa üsul hələ ki tapılmayıb. Qızılca, göy öskürək çox təhlükəli xəstəliklərdir. Bunların qarşısını ancaq peyvəndləmə ilə almaq mümkündür. Ana gətirir uşağı həkimə ki, bəs uşaq öskürəkdən boğulur. Soruşursan, "peyvənd olunub?", cavab verir ki, "yox". Niyə? Cavab yoxdu. Ana deyir "nə bilim". Bəzi valideynlər cahillikdən uşaqlarını peyvənddən uzaq saxlayır. Əhali arasında maarifləndirmə işi güclənməlidir, başa salınmalıdır ki, peyvənd vacibdir. Əhaliyə çağırış edilməlidir. Əyalətlərdə vəziyyət daha pisdir.

**V.Qarayev valideynlərin peyvənd qorxusunun nədən qaynaqlandığını göstərdi:**

- Uşağa peyvənd vurulanda bəzən halı dəyişir, qızdırması qalxır və sair. Valideynlər də bundan qorxur. Həkim başa salmalıdır ki, niyə belə hal baş verir və valideyni məlumatlandırmalıdır. Peyvənd yad zülaldır. O, orqanizmə yeridiləndə müəyyən qədər mənfi təsir göstərməsi təbiidir. Amma bu təsir qısamüddətli, uzaqbaşı 3 sutka davam edir. Bəzən yerli əlamətlə özünü göstərir, iynənin yeri qızarır, qaşınır, tez də keçir. Bəzən də orqanizm daxilində hansısa mənfi hal baş verir, adətən qızdırma olur. Bu da qısa müddətdə ötüb keçir. Mən 15 il uşaqlara peyvənd vurmuşam, bir dəfə də ağır fəsad olduğunu görməmişəm. Hər bir pediatr "öz uşağını" tanımalıdır. Sahə həkimləri xüsusilə. Həkim bilməlidir, körpənin hansı problemləri var, hansısa xəstəliklər keçirib, ya yox. Vaksinasiyanı da buna müvafiq aparmalıdır.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İctimai və dövlət maraqlarının müdafiəsi;




# İnam artır

## Artıq bələdiyyələr cəmiyyət tərəfindən qəbul olunur

**Yerli özünüidarəetmə sisteminin formalaşdırılması prosesi Azərbaycanda demokratik inkişafın əyani nümunəsidir. Hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulması, dövlət və cəmiyyətin idarə olunmasının səmərəliliyinin artırılması istiqamətində atılan addımlar bələdiyyələrin fəaliyyətində öz ifadəsini tapmaqla yanaşı, respublikamızda yerli idarəetmə orqanlarının işinin təşkilinə mühüm töhfə verir.**

Ulu Öndər Heydər Əliyev dövlət və cəmiyyətin idarə olunmasında bələdiyyələrin rolunu yüksək qiymətləndirərək qeyd edirdi: "Yerli özünüidarəetmənin yaradılması Azərbaycanda gedən demokratik proseslərin böyük bir hissəsi, böyük bir qoludur. Demokratik, hüquqi dövlət, dünyəvi dövlət qurmaq prosesinin bir hissəsi, bir sahəsidir". Ümummilli Liderimizin fikirləri bu gün real həyatda öz əksini tapmaqdadır. Heydər Əliyev ideyalarından qaynaqlanan bələdiyyə institutu təkmilləşir, formalaşır, Azərbaycanın ictimai-siyasi və sosial-iqtisadi həyatında öz mövqeyini durmadan möhkəmləndirir. "Yerli özünüidarəetmə haqqında" Avropa Xartiyasının müddəalarına uyğun olaraq respublikamızda da yerli özünüidarəetmə sistemi konstitusiya və qanunvericilik əsasında qurulur. Beynəlxalq normalara uyğundur. Ölkəmizin demokratik şəraitdə idarə olunmasında vətəndaşların rolu artır və onlara yeni, daha geniş imkanlar yaradılır. Bununla əlaqədar yerli özünüidarəetmə sisteminin hüquqi bazasının yaradılması üçün əsaslı tədbirlər həyata keçirilib. Milli Məclis tərəfindən bələdiyyələrin fəaliyyətinin əsas sahələrini əhatə edən mühüm qanunlar, normativ hüquqi aktlar qəbul edilib. Qanunvericiliyin təkmilləşdirilməsi prosesi davam edir və bələdiyyələrin formalaşdırılması, onların sosial-iqtisadi sahədə fəaliyyətinin artırılması və genişləndirilməsi üçün yeni qanunlar hazırlanır, bəzi qanunlara əlavə və dəyişikliklər edilir. Yerli özünüidarəetmə orqanlarının müstəqilliyinin təminatı və səlahiyyətlərinin artırılması ictimaiyyətlə bərabər dövlətin də diqqət mərkəzindədir. Bələdiyyələr dövlətin ən mühüm funksiyalarından biri olan yerli əhəmiyyətli sosial-iqtisadi, ekoloji, sosial müdafiə vəzifələrinin həyata keçirilməsinə xidmət etdikləri üçün onların düzgün istiqamətləndirilməsi, daha yaxşı və səmərəli işləmələrinə şərait yaradılması vacibdir.

Xatırladaq ki, ötən gün Ədliyyə Nazirliyinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə "Heydər Əliyev Azərbaycanda yerli özünüidarəetmənin banisidir" mövzusunda konfrans keçirilib. Ədliyyə nazirinin müavini Vilayət Zahirov Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik irsindən bəhs edərək ölkəmizə rəhbərliyinin bütün dövrlərində xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərini, müstəqilliyimizin möhkəmləndirilməsində xilaskarlıq missiyasını vurğulayıb. Bildirib ki, demokratik hüquqi dövlətin möhkəm təməlini qoyan Ulu Öndər Heydər Əliyev azad cəmiyyətin əsasını təşkil edən yerli özünüidarəetmənin banisidir. Azərbaycan üçün ən gənc təsisat olan yerli özünüidarəetmənin yaradılması prosesi məhz Ümummilli Liderin müəllifi olduğu Konstitusiyamızda bələdiyyələrin təşkilinin və fəaliyyətinin əsas prinsiplərinin təsis edilməsi ilə başlanıb. Ulu Öndərin ideyalarına uyğun olaraq yerli özünüidarəetmə fəaliyyətinin ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə respublikamızın hərtərəfli inkişafına uyğun olaraq təkmilləşdiyini bildirən V.Zahirov müasir üsul və vasitələrdən istifadə edilməklə bələdiyyələrin fəaliyyətində qanunçuluğun gücləndirilməsi üçün inzibati nəzarət, həmçinin fəaliyyətin qanunauyğun təşkili məqsədilə mütəmadi keçirilən profilaktik və maarifləndirmə tədbirlərini qeyd edib, bu sahədə Ədliyyə Nazirliyinin fəaliyyətinə toxunub: "Ötən dövrdə 1 milyona yaxın bələdiyyə aktı hüquqi ekspertizadan keçirilib, profilaktik tədbirlərin gücləndirilməsi və hüquqi maarifləndirmənin yaxşılaşdırılması məqsədilə bələdiyyələrə 75 mindən çox tövsiyə göndərilib, 90 min bələdiyyə üzvü və qulluqçusu Ədliyyə Akademiyasında və digər qurumlarda təşkil edilmiş maarifləndirmə tədbirlərinə cəlb olunub, bələdiyyələr üçün 300 metodik vəsait hazırlanıb". Nazir müavini torpaqlarımızın Ermənistan tərəfindən işğalı dövründə həmin ərazilərdə yerli özünüidarəetmənin təşkilinin mümkünsüz və bir milyondan artıq soydaşımızın özünüidarəetmə hüququndan məhrum olduğunu bildirib, Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində Böyük Qələbəmizlə işğala son qoyularaq tarixi ədalətin bərpa edildiyini xüsusi vurğulayıb. Bildirilib ki, yerli əhalinin rifahı naminə həyata keçirilən tədbirlərdə fəal iştirak edən bələdiyyələr də Vətən müharibəsi və sonrakı dövrdə səmərəli fəaliyyətləri ilə seçilirlər. Ötən müddətdə bələdiyyələr tərəfindən Vətən müharibəsi veteranlarının və şəhid ailələrinin yerli özünüidarəetmə fəaliyyəti ilə bağlı çoxsaylı müraciətləri həll edilib. Həmçinin şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi məqsədilə 900-dən çox abidə və abidə kompleksi, xatirə lövhəsi və bulağı istifadəyə verilib, onların yaşadıqları evlər və küçələr abadlaşdırılıb. Tədbirdə Ədliyyə Nazirliyi tərəfindən müasir tələblərə uyğun hazırlanmış və səmərəli yerli özünüidarəetmə fəaliyyətinə töhfə olan "Bələdiyyələrlə iş portalı"nın təqdimatı keçirilib. Bələdiyyələrin fəaliyyətində səmərəliliyin və aşkarlığın artırılması məqsədilə portalda ictimaiyyət üçün açıq olan faydalı bölmələr, o cümlədən ölkəmizdə yerli özünüidarəetmə sisteminin tarixi, hazırkı dövrədək keçirilən bələdiyyə seçkiləri və onların nəticələri, hər bir bələdiyyə sədri, üzv və qulluqçuları, əlaqə vasitələri, geolokasiyası və s. barədə məlumatlar yerləşdirilib. Eyni zamanda portalda yerli özünüidarəetmə sahəsində Ədliyyə Nazirliyinin gördüyü işlər - metodoloji yardım və inzibati nəzarət tədbirləri öz əksini tapıb. Portal bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət icraatının avtomatlaşdırılmış rejimdə aparılmasını, o cümlədən elektron sənəd mübadiləsini mümkün etməklə, həmçinin bələdiyyələrə şəxsi kabineti vasitəsilə iclas protokollarını (aktlarını) elektron qaydada tərtib etmək imkanı yaradır. Təqdimat zamanı portalın funksional imkanları əyani nümayiş etdirilib, onun ictimaiyyət və bələdiyyələr üçün faydası qeyd olunub.

### *Yaxın gələcəkdə yerli özünüidarəetmə daha səlahiyyətli və məsuliyyətli qurum statusunu əldə edə biləcək*

**Millət vəkili Naqif Həmzəyev "Şərq"ə açıqlamasında bildirib ki, Ulu Öndər Heydər Əliyev, ümumiyyətlə, müasir Azərbaycanın banisi və qurucusudur. Deputat qeyd edib ki, Ulu Öndər ikinci dəfə hakimiyyətə gəldikdən sonra ilk növbədə hüquqi dövlətin qurulması üçün zəruri addımlar atdı:** "Konstitusiya yaradıldı, referendum keçirildi və Azərbaycan Parlamenti yenidən formalaşdırıldı. Bütün bunlarla yanaşı, torpaq islahatları həyata keçirildi. 1999-cu ildə ilk dəfə olaraq bələdiyyə seçkilərinin keçirilməsinə nail olundu. Bu, Azərbaycan cəmiyyəti üçün yeni bir dövrün başlanğıcıdır. Faktiki olaraq yerli özünüidarəetmə, seçkilər yolu ilə bələdiyyələrdə təmsil olunmaq tam yeni yanaşma idi. 1999-cu ildən başlayaraq bələdiyyə seçkiləri Azərbaycanda keçirilir. Mütəmadi olaraq bu təsisatın gücləndirilməsi üçün bəzi dəyişikliklər edilir. Ümid edirik ki, yaxın illərdə bələdiyyələrin statusları, hüquq və səlahiyyətləri daha da artacaq. Nəticə etibarı ilə yerli özünüidarəetmə məhz bələdiyyələr vasitəsilə həyata keçiriləcək. Artıq bələdiyyələr cəmiyyət tərəfindən qəbul edilir. Əvvəlki dövrlərdən fərqli olaraq bələdiyyələr yalnız torpaqların vətəndaşlara verilməsi ilə yox, həmçinin bir çox sosialyönümlü və məhəllədaxili icmaların maraqlarını qorumaq məqsədilə layihələr həyata keçirdir. Bələdiyyələr yerli icmalarla sıx işləyərək vətəndaşların yerlərdəki narahatlıqlarının aradan qaldırılmasında birbaşa töhfə verməkdədir. Bu təsisat cəmiyyətimiz üçün yenidir. Daha da uğurlu fəaliyyət göstərməsi üçün hər kəs çalışmalıdır. İnanırıq ki, yaxın gələcəkdə yerli özünüidarəetmə daha səlahiyyətli və məsuliyyətli qurum statusunu əldə edə biləcək. İstənilən halda Ulu Öndər Heydər Əliyev tərəfindən yerli özünüidarəetmənin yaradılması ilə bağlı verilən qərar çox düzgün və lazımlı bir addım idi. Hazırda fərqli idarəetmə üsulundan istifadə etsək də, bələdiyyələr yerli özünüidarəetmədə yaxından iştirak edir. Bəzi əlavə düzəlişlər və dəyişikliklərlə bu strukturların gücünü daha da artıra biləcəyik".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Zəngəzur dəhlizi yuxularını qarışdırıb

## Ermənistan İran və Rusiyadan gələn diktələri yerinə yetirdikcə zərərli çıxacaq

**Rusiya və Ermənistan arasında siyasi məsləhətləşmələr keçirilib. Bu barədə Rusiya Xarici İşlər Nazirliyi məlumat yayıb.**

Bildirilir ki, aprelin 11-də Rusiya xarici işlər nazirinin müavini Andrey Rudenko İrəvanda Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanla görüşüb.

Danışıqlar zamanı Cənubi Qafqazdakı vəziyyətin müxtəlif aspektlərinə, o cümlədən region ölkələrində vəziyyətin normallaşmasına toxunulub.

**Görüşü "Şərq"ə dəyərləndirən hərbi-siyasi ekspert Həşim Səhrablı söyləyib ki, Ermənistan və Rusiya arasındakı əlaqələr iqtidarlar arasında gərginliyin olmasına baxmayaraq, bir müttəfiqlik münasibətidir:** "Bu dövlətlərin iqtidarlarının biri-birinə qarşı mövqelərindən asılı olmayaraq maraqları üst-üstə düşür. Yəni Rusiya və Ermənistan Cənubi Qafqazda təxminən eyni maraqlardan çıxış edir. Xüsusən regionda baş verən problemli və ziddiyyətli məsələlərdə prosesin Ermənistan və Rusiyanı eyni nöqtədə birləşdirdiyini görürük. Çünki proseslər Azərbaycanın istədiyi kimi tez bir şəkildə yekunlaşarsa, diktə edən tərəf rəsmi Bakı olacaq. Nəticə etibarilə baş verənlər bizim və tərəfdaşlarımızın maraqları çərçivəsində reallaşır. Ancaq biz tam tərsini görürük. Yəni regionda hamı sülhdən danışır, lakin bunda maraqlı olan tərəf yalnız Azərbaycan və onun tərəfdaşlarıdır. Bunun qarşılığında isə Ermənistan, İran, Rusiya kimi dövlətlərdən təxribat dolu addımlar görürük. Məsələn, rus sülhməramlıları faktiki olaraq bölgədə nizamlanma prosesini müxtəlif vasitələrlə zədələyir. Onlar rus mərkəzi açır, Qarabağ ermənilərinə rus vətəndaşlığı vermək kimi absurd fikirlər ortaya atır və s. Ermənistan tərəfi isə "Azərbaycanın işinə qarışmırıq" deyərək, separatizmə dəstək verməyə davam edir. Dünənki təxribatda da gördük ki, Ermənistan tərəfi İran dronlarından istifadə edir. Bu da göstərir ki, İran özü pozucu fəaliyyətlərin yaxından iştirakçısıdır".

**Ekspertin sözlərinə görə Rusiya, Ermənistan XİN-in və digər diplomatik korpuslar arasındakı müzakirələr, bu iki dövlətin öz maraqları naminə "status-kvo"nu necə dəyişə biləcəklərinə hesablanıb:** "Biz onların konkret nə planlar qurduğunu deyə bilmərik. Bəlkə də dairələrin özləri də bunu dəqiqləşdirməyib. Amma əminliklə söyləmək mümkündür ki, hazırda Ermənistan və Rusiya Azərbaycanın artan təzyiqləri fonunda çıxış yolu üçün fikir mübadiləsi aparırlar. Yəni onlar ortaq şəkildə rəsmi Bakının Qarabağdakı hüquqlarının bərpasına və tranzit yollarının açılmasına mane olmağa çalışır. Düzdür, Zəngəzur dəhlizində Rusiya özü də maraqlıdır. Ancaq bu koridorun Azərbaycan və onun tərəfdaşlarının maraqları çərçivəsində reallaşmağını istəmir. Bütün bu ziddiyyətli məsələlər hər zaman İrəvan və Moskva arasında gündəm mövzusu olub. Ermənistan tərəfi isə İran və Rusiyadan gələn diktələri yerinə yetirdikcə zərərli çıxmağa davam edəcək".

**Nihat Müzəffər**

# Təfəkkür dəyişməyib

## İllərdir qadınlar daha çox ərləri tərəfindən zorakılığa məruz qalır

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi məişət zorakılığı ilə bağlı statistikanı açıqlayıb. Məlumata görə, bu ilin ilk 3 ayı ərzində məişət zorakılığı ilə bağlı Komitəyə 122 müraciət daxil olub. Bu müraciətlərə əsasən, yerli icra hakimiyyəti orqanları tərəfindən zərərçəkmiş şəxslərə 15 mühafizə orderi verilib.**



*"Qətl hadisələri birdən-birə baş vermir. Bu cür faciələr uzun illər yığılan psixoloji, iqtisadi və fiziki zorakılıqların nəticəsində əmələ gəlir"*

Dövlət Komitəsinin məlumatında bildirilir ki, daxil olan müraciətlərdə psixoloji zorakılıq üzrə şikayətlər üstünlük təşkil edib. Şikayət edənlərin zorakılığın bir neçə növünə məruz qaldığı məlum olub. Müraciət edənlərin əksəriyyəti əri (65), keçmiş əri (20) və yaxın qohumu (24) tərəfindən zorakılığa məruz qalıb. Zorakılıq törədənlərin 106 nəfəri kişi, 21 nəfəri qadındır.

2022-ci ilin statistikasına baxanda fərqli vəziyyət müşahidə edilmir. 2022-ci il ərzində 475 qadın və 20 kişi məişət zorakılığına məruz qalmaları ilə bağlı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə müraciət edib. Müraciətlərin 409-u psixoloji, 304-ü fiziki, 5-i cinsi zorakılıqla bağlı olub. Müraciət edənlərdən 301-i əri, 146-sı keçmiş əri, 67-si isə digər qohumları tərəfindən zorakılığa məruz qaldıqlarını bildiriblər. Rəqəmlər onu göstərir ki, psixoloji zorakılıq yenə üstünlük təşkil edir. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquqi təminat şöbəsinin müdiri Taliyə İbrahimovanın sözlərinə görə, zorakılıq əsasən fiziki, psixoloji, iqtisadi və cinsi cəhətdən ola bilər. Fiziki zorakılıqda söhbət döyülməkdən gedir. Psixoloji zorakılıqda qadın özünə qəsd həddinə qədər çatdırıla bilər. İqtisadi zorakılıq - evi maliyyələşdirən bir nəfər hegemon qüvvəyə çevrilir. Həm fiziki, həm də iqtisadi zorakılıq olduqda qadının işi daha da çətinləşir. T.İbrahimovanın sözlərinə görə, bəzi hallarda ailə üzvləri məişət zorakılığı qurbanına çevrilən qadınlara daha çox dözmək və polisə müraciət etməməklə bağlı məsləhət verdiklərini deyirlər: "Qətl hadisələri birdən-birə baş vermir. Bu cür faciələr uzun illər yığılan psixoloji, iqtisadi və fiziki zorakılıqların nəticəsində əmələ gəlir: "Bu baxımdan vaxtında müraciət önəmlidir". T.İbrahimova bildirib ki, məişət zorakılığı qurbanına çevrilən qadınların evlərində təhlükəsiz yaşamaq hüququ təmin edilməlidir. Real təhlükənin mövcud olduğu hallarda məişət zorakılığı törətmiş şəxsə qurbanın yaşadığı yeri tərk etmək barədə göstəriş vermək və zorakılığı törətmiş şəxsin qurbanın yaşayış yerinə daxil olması və ya onunla əlaqə saxlaması qadağan edilməlidir. Bu cür tədbirlər qurbanların təhlükəsizliyinə prioritet verilməklə dərhal həyata keçirilməli və kifayət qədər müddət üçün nəzərdə tutulmalıdır. Qısamüddətli mühafizə orderlərinin müddəti dəqiq göstərilməlidir ki, qurbanlar da tədbirin müddəti barədə aydın təsəvvürə və əminliyə sahib olsun. Müddətin dəqiq göstərilməsi həm də o deməkdir ki, məsul əməkdaşda daha çox əminlik olur va onun üzərinə daha az yük düşür, çünki təhlükəli vəziyyətlərdə qısamüddətli mühafizə orderləri dərhal verilməlidir.

Komitə nümayəndəsi bildirib ki, əvv**əllər mühafizə orderlərinin tətbiqi ilə bağlı çətinliklər vardı. Bu da mühafizə orderi məsələsinin düzgün dərk edilməməsi və onun tətbiqi sahəsində nöqsanlarla bağlı idi. Bəzən verilən mühafizə orderləri hadisələrin sayına adekvat olmur:** "Bir qayda olaraq qısamüddətli mühafizə verilir, təhlükə davam etdikcə uzunmüddətli mühafizə orderlərinin verilməsi gecikir. Bununla bağlı təkliflər paketi hazırlanıb. Bura zərərçəkmiş şəxslərin müdafiəsi üzrə çevik və adekvat mühafizə mexanizminin yaradılması, pulsuz hüquqi yardım verilməsi daxildir".

**Məlahət**



## Mətbuat Şurasının komissiya üzvləri KKTC-nin Bakıdakı nümayəndəsi ilə görüşüblər

**Azərbaycan Mətbuat Şurasının Beynəlxalq əlaqələr komissiyasının üzvləri Kuzey Kıbrıs Türk Cümhuriyyətinin (KKTC) Bakı nümayəndəliyinin rəhbəri Ufuk Turganer ilə görüşüblər.**

Sədr Müşfiq Ələsgərli rəhbərlik etdiyi komissiyasının fəaliyyəti və prioritetləri barədə məlumat verib. Komissiyanın üzvləri - Yadigar Məmmədli, Azər Həsrət və Aqil Ələsgər iki ölkənin media platformaları arasında münasibətlərin inkişaf etdirilməsinə dair fikirlərini bölüşüblər. Onlar KKTC nümayəndəliyi ilə Mətbuat Şurasının əməkdaşlığının bu sahəyə verə biləcəyi töhfələr barədə söz açıblar.

Ziyarət üçün təşəkkürünü bildirən Ufuk Turganer təmsil etdiyi diplomatik missiyasının media ilə münasibətlərə xüsusi diqqət yetirdiyini bildirib. O, nümayəndəliklə Mətbuat Şurası, həmçinin ölkənin media qurumları arasında əməkdaşlığın sağlam təməllər üzərində qurulduğunu, ümumi maraqlara uyğun olduğunu vurğulayıb.

Ufuk Turganer eyni zamanda əməkdaşlığın inkişafı üçün təkliflərini səsləndirib. Görüşdə qarşılıqlı maraq doğuran məsələlərlə əlaqədar fikir mübadiləsi aparılıb.

**Aygün**

## Uşaqlarda 37 dərəcə hərarəti dərmanlarla salmağa ehtiyac yoxdur

Pediatr: "İmkan vermək lazımdır ki, orqanizm virusla mübarizə aparsın"




**İnsanlar mikroblarla mübarizə aparmaq üçün immunitet sistemini yüksəltməyə çalışırlar. Viruslara qarşı immun hüceyrələrinin formalaşması ən çox uşaq yaşlarında olur.**

Bunu pediatr Xanım Əhmədova deyib. Onun sözlərinə görə, son günlər dəyişkən hava şəraiti ilə bağlı uşaqlar arasında yayılan yuxarı tənəffüs yolları virus infeksiyaları zamanı analar bir çox yanlışlıqlara yol verir. Pediatr həmin yanlışlıqların təbii yolla immunitetin güclənməsinə mane olduğunu, xəstəliyin sağalma dövrünü uzatdığını deyib: "Belə hallarda əgər yüksək hərarət varsa, düzgün idarə olunmalıdır. Uşaqlarda 37-37.5° hərarəti dərmanlarla salmağa çalışmaq olmaz. Əslində imkan vermək lazımdır ki, orqanizm virusla mübarizə aparsın. Yalnız hərarət 38-38.5°-ə yüksəldiyi zaman müdaxilə etmək olar. Həkim göstərişi olmadığı halda antibiotik müalicəsinə başlamaq düzgün deyil. Antibiotik mütəxəssis məsləhəti ilə istifadə oluna bilər. Uşağı iştahası olmadığı halda məcburi yedizdirməyə çalışmayın. Bu kimi hallarda bol vitaminli toyuq şorbası və meyvə-tərəvəzlə qidalandırmaq daha məqsədəuyğundur. Eyni zamanda uşağın olduğu otağın havasını tez-tez dəyişmək, burun tənəffüsünün rahat olmasını təmin etmək lazımdır. Əgər hərarət 3 gündən artıq davam edirsə, pediatrın baxması məsləhətdir".

## Türkmənistan Ermənistana qaz verəcəkmi?

Təbii ki, hər şey Berdımuhəmmədovların cavabından asılı olacaq



**"Rəsmi İrəvan Tehranla türkmən qazının "svap" şərtlərlə Ermənistana nəqli ilə bağlı danışıqlar aparıb.**

Bu məqsədlə İran-Ermənistan qaz kəmərinin buraxıcılıq gücünün artırılması da müzakirə edilib". Bu barədə Neft Araşdırmalar Mərkəzinin rəhbəri, enerji məsələləri üzrə ekspert İlham Şaban deyib. Ekspert bildirib ki, Ermənistanın birbaşa İrandan qaz almaq istəməsinin başlıca səbəbi sanksiya altında olan ölkə ilə münasibətlərin yüksəlişini nəzərdən yayındırmaqdır: "İndiyə qədər İrandan aldığı qaz kommersiya idxalı hesab edilmir: Ermənistan İrandan aldığı hər kubmetr qazdan təqribən 4,5 kVt/saat elektrik enerjisi istehsal edir və onun 3 kVt/saatını İrana qaytarır. Yerdə qalanını özünün ehtiyaclarına yönəldir. Bir növ daxili istehlakda müəyyən həcmdə "pulsuz işıq" yaratmaq imkanı qazanır. İran qazı Rusiya mavi yanacağından bahalı olduğundan Ermənistan tərəfi cənub qonşusunun mütəmadi təkliflərindən yayınır. Həmçinin yaddan çıxartmaq olmaz ki, Ermənistan ərazisindəki bütün magistral qaz kəmərləri "Gazprom Armenia" şirkətinin mülkiyyətindədir. Rusiya tərəfi ilə razılaşdırmadan "qazın kommersiya idxalının şaxələndirilməsi" rəsmi İrəvan üçün daxili bazarda istehlak qiymətlərinin bahalaşması probleminə də gətirib çıxara bilər. Türkmənistan Ermənistana "svap" şərtlərlə İran üzərindən qaz sata bilərmi? Yəni rəsmi İrəvan Aşqabada belə bir təkliflə müraciət edə bilər ki, "Azərbaycana satdığınız şərtlərlə sizdən qaz idxal etmək istəyirik". Təbii ki, hər şey Berdımuhəmmədovların cavabından asılı olacaq. Və aydın olmayan odur ki, Xəzərin o tayındakı Oğuz türkləri bu təklif olduğu təqdirdə onu necə cavablandıracaqlar".

**İsmayıl**

# Dəvətlər 4 dəfə artıb

## Ruslar işləməyə daha çox Türkiyəyə üz tutur

**"Son iki ildə hansı ölkələr rusları işləmək üçün dəvət ediblər. Azərbaycandan dəvət olmamasından daha çox əvvəlki illərə nisbətən ruslara Türkiyədən dəvətlərin sayının 4 dəfə artması maraqlıdır". Bu məlumatı Azərbaycan İnternet Forumunun prezidenti, "Multimedia" Mərkəzinin direktoru Osman Gündüz sosial şəbəkədəki hesabında paylaşıb.**

Rusların işə dəvət infoqrafikasını da məlumata əlavə edib. Məlumatda rusların hansı ölkələrdən daha çox iş dəvəti aldıqları göstərilir. Dəvət edən ölkələr sırasında MDB məkanından - Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Gürcüstan da var, Almaniya, Birləşmiş Ərəb Əmirlikləri kimi ölkələr də. Türkiyədən dəvətlərin sayının 4 dəfə artması nə dərəcədə maraq doğurursa, Rusiyanın ən yaxın müttəfiqi Belarusiyanın rus işçilərə marağının demək olar ki, sıfıra enməsi də bir o qədər təəccüblüdür.



**"Belarusiyanın rus işçilərə marağının demək olar ki, sıfıra enməsi təəccüblüdür"**

**Məsələ ilə bağlı "Şərq"ə açıqlama verən iqtisadçı Fuad İbrahimov qeyd etdi ki, ruslara Türkiyədən dəvətin 4 dəfə artmasının əsaslı səbəbləri var:**

- Türkiyə iqtisadiyyatı son illərdə çox şaxələnib, genişlənib, iqtisadiyyatda nəzərəçarpan artım var. İstər yüksək texnologiyalar olsun, istər sənaye, kənd təsərrüfatı, maşınqayırma, energetika, o cümlədən turizm sektoru. İqtisadiyyatın bütün sahələri Türkiyədə inkişaf edir. Rusiyanın İP, texnologiya, maşınqayırma, energetika, turizm sahələri üzrə yetişmiş, dayanıqlı mütəxəssisləri var. Bu mütəxəssislərə ehtiyac var və onlar sərfəli təkliflərlə işə dəvət olunurlar və gedirlər. Burada söhbət beyin axınından gedir. ABŞ-nin özü bir vaxtlar məhz Rusiyadan gedən mütəxəssislər hesabına iqtisadiyyatın müxtəlif sahələrini inkişaf etdirdi. Yəni həqiqi, təcrübəli mütəxəssislərə həmişə hər yerdə ehtiyac var. Uzağa getməyək, "Akkuyu" atom elektrik stansiyasının tikintisiylə bağlı Türkiyə ilə Rusiya arasında əməkdaşlıq müqaviləsi var. Rusiya bu stansiyanın tikintisində iştirak edir. Ucuz işçi qüvvəsi tələbatı da var, həm də mütəxəssislərə tələbat var. Belarusiyaya gəlincə, bu ölkə Rusiya iqtisadiyyatından asılı vəziyyətdədir. Ruslar orada aşağı əməkhaqqı müqabilində çalışmaqda maraqlı deyillər. Baxmayaraq ki, Azərbaycanla bağlı statistik rəqəmlər verilməyib, bura da kifayət qədər rus mütəxəssislər gəlib və işləyirlər. Söhbət peşəkarların gəlişindən gedir.

**Məlahət**

# Təklif alqışlandı

## "Bu universitet Mədəniyyət Nazirliyinin tabeliyinə verilməlidir"



**"Elm və Təhsil Nazirliyinin işçilərinin 90 faizi teatrlar haradadır bilmirlər".**

Bu sözləri teatrşünas, Əməkdar incəsənət xadimi İlham Rəhimli "Azərbaycan teatrı - 150: inkişaf perspektivləri" mövzusunda keçirilən Teatr Forumunda deyib.

O bildirib ki, bu səbəbdən yaradıcı sahəyə laqeyd yanaşılır və bəzi qurumlar Mədəniyyət Nazirliyinin tabeliyinə verilməlidir: "Mədəniyyət və İncəsənət Universiteti və digər mədəniyyət müəssisələri nazirliyin balansına verilsə, yaxşı olar".

İ.Rəhimli teatrlara yardım edən sponsorların vergidən azad edilməsini təklif edib: "Rəhbərlik bu barədə Nazirlər Kabinetinə təkliflər versin".

Teatrşünasın təklifi müzakirə yaradıb. Kimisi onunla razılaşsa da, kimisi universitetin Elm və Təhsil Nazirliyinin tərkibində qalmasını daha məqsədəuyğun hesab edir.

Məsələ ilə bağlı "Şərq"ə danışan Əməkdar artist, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rejissor və aktyor sənəti kafedrasının professoru Gülşad Baxşıyeva İ.Rəhimlinin təklifini alqışladığını deyib: "Bizim təhsil aldığımız 1970-ci illərdə Mədəniyyət və İncəsənət Universiteti Mədəniyyət Nazirliyinə tabe idi. Çünki istəsən də, istəməsən də, bizim məzunlarımız sırf mədəniyyətə xidmət edən insanlardır.

Bu barədə İlham Rəhimlinin təklifini alqışlayıram və dəstəkləyirəm.

Bununla bağlı çox söhbətlər gedirdi, müəllimlər arasında da deyirdik ki, biz Mədəniyyət Nazirliyinə tabe olmalıyıq".

**Samirə Ərəblinskaya**

# Dərman idxalı və satışı ƏDV-dən azad olunmalıdır

## Tarif Şurasının qiymət siyasətini təkmilləşdirməsinə ehtiyac var

**"Bu gün Azərbaycanda dərman vasitələrinin idxal prosedurunun sadələşdirilməsinə ehtiyac var".**

Bunu Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva Parlamentin aprelin 11-də keçirilən plenar iclasında çıxışı zamanı deyib.

Onun sözlərinə görə, bu sahədə ən vacib məsələ inhisarçılığa son qoyulmasıdır.



Məsələyə münasibət bildirən millət vəkili, iqtisadçı-ekspert Vüqar Bayramov "Şərq"ə bildirib ki, Milli Məclisin sonuncu plenar iclasında idxalın asanlaşdırılması və qiymət siyahısının təkmilləşdirilməsi ilə bağlı da təkliflər irəli sürülüb: "Xüsusən də dərman idxalındakı proses çox vacibdir. Bu istiqamətdə dərman idxalında tətbiq edilən vergilərin, o cümlədən əlavə dəyər vergisinin dərəcəsinə də baxılması məqsədəuyğun olardı. Ümumiyyətlə, əksər ölkədə dərman idxalı və satışında aşağı faizli əlavə dəyər vergisi tətbiq olunur.

Bu baxımdan oxşar praktikanın Azərbaycanda da tətbiqi lazımdır. Digər tərəfdən isə Tarif Şurasının qiymət siyasətini təkmilləşdirməsinə ehtiyac var. Çünki mövcud qiymət siyasəti, sahibkarlara idxal məhsullarını şaxələndirməyə imkan vermir.

Ona görə də qiymət siyasəti təkmilləşdirilməli və sahibkarlara bu istiqamətdə daha geniş imkanlar yaradılmalıdır. Bu, bazarın daha da liberallaşmasına və qiymətlərin optimallaşdırılmasına gətirib çıxara bilər".

**Nihat Müzəffər**

## Zülfiyyə Xanbabayevanın qızı NASA-nın mükafatını qazandı



**Xalq artisti Zülfiyyə Xanbabayeva qızı Dənizlə bağlı paylaşım edib.**

Axşam.az xəbər verir ki, sənətçi övladının Amerikada NASA-nın müsabəsində iştirak etdiyini bildirib:

"Bütün komandanı və onun üzvü olan Dənizimi ürəkdən təbrik edirəm! ABŞ-də NASA-nın "FIRST Robotics Competition" (FRC) müsabiqəsinə bu il ilk dəfə olaraq Azərbaycandan istedadlı gənclər qatılıblar və mükafata layiq görülərək Texas ştatının Hyuston şəhərində keçiriləcək finala vəsiqə qazanıblar. Uşaqlar, yolunuz açıq olsun".



## Ağartı məhsullarının qiyməti bahalaşıb

Ölkəmizdə inhisarçılıq mövcuddur, məmur sahibkarlığı var

**İsmayıllıda son günlərdə ağartı məhsullarının qiyməti bahalaşıb. "Baku TV" bununla bağlı süjet hazırlayıb. Satıcıların sözlərinə görə, heyvan yemlərinin qiymətinin baha olması ağartı məhsullarına da təsir edib.**

Onlar qeyd ediblər ki, əvvəllər 4-5 manata satılan pendirin qiyməti hazırda 7-8 manatdır: "İnək yağının bir kiloqramı 18 manat, camış yağı isə 20 manatdır".

Bahalaşmanın səbəblərini "Şərq"ə şərh edən iqtisadçı-ekspert Nazim Bəydəmirli bildirib ki, bu, bazardakı tələb və təkliflə əlaqədir: "Tələb çox, təklif isə az olanda qiymətlər artır. Azərbaycanda liberal bazar iqtisadiyyatının qaydaları az işləyir. Çünki ölkəmizdə inhisarçılıq mövcuddur, məmur sahibkarlığı var. Qiymətlər bəzən obyektiv yox, bəzən də subyektiv səbəblərdən bahalaşır. Eyni zamanda Azərbaycanda yem məhsullarının böyük qismi qonşu ölkələrdən idxal olunur. Yemin qiyməti bahalaşdıqca problemlər artır. Maldarlıqda, heyvandarlıqda qiymət artımı yem təminatı ilə bağlıdır. Bölgələrdə qış tamamilə yekunlaşmayıb, yem bolluğu müşahidə olunmur. Təbii yem, otluq sahələr yoxdur. Ona görə qiyməti yüksəldirlər".

**Aygün Tahir**

## Özəl teatrlar olmalıdır

Aktyorluq fakültəsini bitirənlər iş tapmaqda çətinlik çəkirlər



**Xalq artisti Vidadi Həsənov özəl teatrların yaradılmasını təklif edib.**

Axşam.az xəbər verir ki, o, bu haqda "Azərbaycan teatrı - 150: inkişaf perspektivləri" mövzusunda keçirilən Teatr Forumunda danışıb. V.Həsənov bildirib ki, aktyorluq fakültəsini bitirənlər iş tapmaqda çətinlik çəkirlər:

"Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini bitirən istedadlı tələbələrin bir hissəsi 3-4 ildən sonra taksi fəaliyyəti ilə məşğul olurlar. Bunun üçün özəl teatrlar olmalıdır. Qərarlarda, qanunlarda dəyişikliklər lazımdır. Teatrların formatı dəyişdirilməlidir. Rəqabət olmayan yerdə inkişaf da olmaz. Buna görə də yeni teatrlara ehtiyac var. Eyni zamanda bina problemi var. 17 müstəqil teatr var, yalnız ikisinin binası var. Nazirlikdən xahiş edirik ki, bizə divarları aşmaq üçün imkan yaratsınlar".

**Elan**

Hüseynova Günel Rafiq qızına Yeni Azərbaycan Partiyası, Yasamal rayon Təşkilatı tərəfindən verilmiş üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 942



## Dünyanın ən balaca iti
### Pearl Ginnesin Rekordlar Kitabına düşüb

**Pearl hazırda dünayda yaşayan ən balaca itdir. 9,14 santimetr boyu, 2,7 santimetr uzunluğu ilə Pearl adı Ginnesin Rekordlar Kitabına salınıb.**

"Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, "Chihuahua" cinsinə aid it 553 gram ağırlığındadır və o qədər kiçikdir ki, insanın ovcuna sıxışır. Onu hətta köynəyin cibində də daşımaq olur. Pearl adının Rekordlar Kitabına salınması asan olmayıb. Ondan əvvəl "birincilik" Milli adlı itin olub. Pearlın ondan daha qısa boylu olduğu sübuta yetirildikdən sonra birinciliyi əldə edib. Pearl 2020-ci ildə ABŞ-nin Orlando ştatında 27 qram ağırlığında doğulub. Sahibi itinin bahalı qidalarla qidalandığını deyib. Pearl axşam yeməyində bahalı toyuq və somon balığı yeyir, "gözəl geyinməyi" sevir. Sahibi belə bir iti olduğu üçün özünü xoşbəxt sayır.

**Məlahət**

## Cordanın ayaqqabısı 2,2 milyon dollara satıldı




**Mərhum basketbolçu Maykl Cordanın ayaqqabısı öz sahibini tapıb.**

"Şərq" xəbər verir ki, onun NBA final oyununda geyindiyi ayaqqabı Nyu-Yorkda hərraca çıxarılıb. Ayaqqabıya yekunda 2, 2 milyon dollar (təxminən 5 milyon manata yaxın - red.) təkluf olunub və satılıb.

**Samirə**

## 16 illik məhkəməsi sona çatıb
### Şipa Şittini öpdüyü üçün linç edilən aktyor bəraət alıb



**Dünyaca məşhur aktyor Riçad Qerenin 16 illik məhkəməsi sona çatıb.**

**"Şərq" xəbər verir ki, "AİDS" ilə mübarizə üçün təşkil olunan tədbirdə Bollivud ulduzu Şipa Şittini öpdüyü üçün linç edilən sənətçi bəraət alıb.**

**Bu hərəkətinə görə illərdir tənqid edilən və bu addımının hind adət-ənənələrinə zidd olduğu üçün qınanılan Riçad günahsız hesab edilib.**

**Bundan əlavə aktyorun onu öpməyinə icazə verdiyi üçün tənqidlərə məruz qalan Şipa da təxliyə olunub.**

**Samirə**

## Seren Serengil sevgilisindən ayrılıb



**Müğənni və televiziya ulduzu Seren Serengil sevgilisi Mustafa Rahman Tohmadan ayrılıb.**

**"Şərq" xəbər verir ki, sənətçi bu barədə özü məlumat verib.**

**İnstaqram hesabında ayrıldığını bildirən Seren daha sonra canlı yayım açacağını yazıb.**

**Müğənni sevgilisinin onu evli bir xanımla aldatdığını paylaşsa da, sonradan yazdıqlarını silib.**

**Samirə**

## Puqaçovanın qızı və nəvəsi araşdırılacaq



**Rusiyanın Xalq artisti Alla Puqaçovanın qızı, müğənni Kristina Orbakayte və onun böyük oğlu, aktyor Nikita Presnikovla bağlı araşdırma aparılacaq.**

**Axşam.az xəbər verir ki, bu barədə "Mash" teleqram kanalı məlumat yayıb. Bildirilib ki, onların Ukrayna Silahlı Qüvvələrinin maliyyələşdirilməsinə yardım edib-etmədikləri yoxlanılacaq.**

**Belə ki, məsələ ilə bağlı "Rusiyanın Cənub Vətənpərvər Qüvvələr Assosiasiyası" təşkilatının ictimai fəalları İstintaq Komitəsinə müraciət ediblər.**

## İsveçrə kovid peyvəndindən imtina edir




**İsveçrə Federal İctimai Səhiyyə İdarəsi COVID-19 peyvəndinin, hətta yüksək risk altında olanlar üçün də tövsiyə edilmədiyini açıqlayıb.**

**"Medicina" xəbər verir ki, hökumət artıq əhalinin kifayət qədər təbii immunitet qazandığını hesab edir.**

**"Prinsipcə, 2023-cü ilin yaz/yay ayları üçün heç bir COVID-19 peyvəndi tövsiyə edilmir. İsveçrədə demək olar ki, hər kəs peyvənd olunub, yaxud COVID-19-a yoluxub sağalıb. Buna görə də onların immun sistemləri koronavirusa antikor qazanıb" - deyə bəyanatda deyilir.**

**Beləliklə, daha bir ölkədə kovid peydəndlənməsi dayandı.**



# Həkimlər körpədən əlini üzmüşdü
### Bir səndviçi 2 ilə ancaq yeyib bitirə bildi



**Dünyaya gəldi, həkimlər "yeriyə bilməyəcək, müstəqil hərəkət edə bilməyəcək", dedi. Körpə maqnit rezonans aparatında müayinə olunduqda valideynləri şoka düşüb. Məlum olub ki, körpə yalnız 2 faiz beyinlə doğulub.**

Bununla belə valideynləri ondan ümidini kəsməyib. Noah adı verilən körpənin inanılmaz həyat hekayəsini "Milliyet.com" təqdim edib. Körpə İngiltərənin Cumbria bölgəsində, nadir rastlanan xəstəlik - hidrosefali ilə anadan olub. Həkimlər körpənin qısa müddət yaşayacağını, danışa, addımlaya, hərəkət edə bilməyəcəyini söyləyib. Amma hər kəsin "sağ qalmaz, ölər", dediyi körpə indi 11 yaşındadır və məktəbə gedir, dərslərini oxuyur, sərbəst hərəkət edir. Valideynləri heç vaxt ümidlərini itirməyib. Mütəxəssislərə müraciət edib, körpənin müalicəsini israrla davam etdiriblər. Körpə həkimlərin heyrətinə rəğmən 3 yaşına çatıb. Bu müddətdə olmayan beyninin 80 faizi formalaşıb! Ayağa qalxa bilib, danışmağa başlayıb. Noahın anası 50 yaşındadır və körpəsinin inkişafı barədə bunları deyib: "11 yaşlı oğlumun ilk dəfə addım atdığını gördüyümdə gözlərimə inanmadım. Möcüzə oğlum, əlini əlil arabasının tutacağına qoyub, yaşıdları kimi dünyanı seyr etdiyində gözləri parlayırdı. Onunla bağlı qorxunc diaqnozlara rəğmən heç vaxt ümidimi üzmədim. Onun bir gün ayağa qalxacağına heç şübhəm olmadı".



Noah hər gün yeni bacarıqları ilə valideynlərini sevindirir. Köynəyini özü geyinir, corablarını yuxarı çəkir. Bizə baxıb gülür, gülüşüylə də "bunları bacarıram", söyləyir. Anası oğlunun bir səndviçi təkbaşına yeməsinin 2 ilə başa gəldiyini deyib: "Bir səndviçi 2 il yeyib bitirə bildi, amma bunu bacardığı üçün xoşbəxtəm". Həkimlərsə bu cür beyin anomaliyası ilə doğulmuş körpələrin bəzən gözlənilmədən inkişaf edə biləcəyini, əksinə, normal xüsusiyyətlərlə anadan olanlarda sonradan qüsurlar ortaya çıxa biləcəyini qeyd edir. Mütəxəssislərin fikrincə, hər şey insanın beyin hüceyrələrinin hansı halda olmasından asılıdır.

**Məlahət**



# Həkimdən məsləhət
### Toyuq, balıq və ətdən hormonları çıxarmaq olur

**Ev quşlarından, balıqdan və ya ətdən antibiotiklərin və hormonların bişirilməzdən öncə təmizlənməsi bu gün sağlamlıq üçün əsas şərtlərdən biridir.**

"Medicina" xəbər verir ki, ət, balıq və ya quş ətində təhlükəli maddələrin olması reallıqdır.

Həkim terapevt - endoskopist Lidia Qolubenko bildirir ki, heyvan qidasında ola biləcək ən təhlükəli maddələrə əlbəttə ki, antibiotiklər, müxtəlif növ hormonlar və böyümə stimulyatorları aiddir.

Daha az təhlükəli olan ağır metallar, toksinlər və yoluxucu maddələrdir. Çoxları hesab edir ki, yüzlərlə baş quş, mal-qara və ya tonlarla balıq müxtəlif maddələrdən - hormonal maddələrdən, böyümə və çəki artımını stimullaşdıran maddələrdən, kimyəvi əlavələr olan xüsusi yemlərdən istifadə etmədən yetişdirilə bilməz.

Bundan əlavə, insanlar kimi heyvanlar, quşlar və balıqlar viral, bakterial və parazitar infeksiyalardan əziyyət çəkə bilərlər. Epidemiyaların qarşısını almaq üçün antibakterial, antiviral komponentləri olan müxtəlif dərmanlar, peyvəndlər və ya zərdablar istifadə olunur.

Ətdə qalan, xüsusən də hormonal aktivliyə malik olan hər hansı əlavələr insanlarda müxtəlif patologiyaların, o cümlədən həm qadınlarda, həm də kişilərdə xərçəng, metabolik pozğunluqlar və reproduktiv pozğunluqların riskini artıra bilər.

Təəssüf ki, ət və quş ətində antibiotiklərin normadan çox olması artıq insanlarda antibiotiklərə davamlı bakteriyalar formalarının əmələ gəlməsi riskini artırır.

Mütəxəsisilərin fikrincə, çiy ət, balıq və ya quş ətinə daxil ola bilən hər hansı bir bakteriya, antibiotiklərə qarşı müqavimətindən asılı olmayaraq, istilik təsiri (qovurma, qaynatma, bişirmə) zamanı məhv edilir.

Bəs antibiotikləri və ya hormonları ətdən çıxarmaq mümkündürmü?

Heyvandarlıq yetişdirərkən istifadə olunan hər hansı bir peyvənd patogenin xoşxassəli və ya öldürülmüş variantları kimi təsnif edilir. Onlar canlı orqanizmin immun sistemini stimullaşdırır, infeksiyaya qarşı antikorlar yaradır və bədəndən xaric olur. Bu, bir neçə gün ərzində baş verir, vurulan maddənin qalıqları immunitet sistemi tərəfindən məhv edilir. Onlar insanlar üçün təhlükəli deyil.

Hormonlar quş və ya heyvan orqanizmi tərəfindən istehsal olunan təbii zülallardır, onlar zülal xarakterlidir.

Qızdırıldığında və hər hansı bir istilik müalicəsi zamanı onlar məhv edilir. Buna görə də, yeməkləri adi şəkildə bişirirsinizsə, sağlamlıq riski yoxdur.

Ət və ya quş ətini, balıqları suda və ya mineral suda əvvəlcədən islatmaq və təxminən bir saat saxlamaq olar. Əti aldıqdan sonra dərhal bişirməyin. Suya bir az duz və ya limon suyu əlavə edə bilərsiniz, bu, ətdən təhlükəli birləşmələri "çıxarmağa" kömək edəcəkdir.

İkinci dərəcəli bulyonda bişirməyə və birincisini atmağa dəyər: ət və ya quş əti, balıq bişirərkən suya çoxlu yad maddələr keçir.

Eləcə də ətdən dəri və artıq yağları çıxarın, onlar ən zərərli maddələri yığırlar.

## İspanaq "bitkilərin şahı"dır
### Bu göyərti prostat vəzi xərçənginə qarşı güclü vasitədir



**Məşhur təbib İbn Sina ispanağın müalicəvi xüsusiyyətləri haqqında bəhs edərkən onu "bitkilərin şahı" və "mədənin süpürgəsi" adlandırmışdı.**

Nəzərə alaq ki, hazırda göy-göyərtinin, tərəvəzlərin bol vaxtıdır, qiymətlər də nisbətən ucuzlaşıb, fürsətdən yararlanmaq lazımdır. "Şərq" "ailehekimiklinikasi.az"a istinadən ispanağın faydalarını oxuculara çatdırır. Dəmirlə zəngin olan ispanağın tərkibində A və C vitaminləri var. Bu bitki soyuqdəymənin qarşısını alır və dişlərin çürüməsini əngəlləyir. Qanı az olanlara da ispanaq yemək məsləhət görülür. Bitki eyni zamanda prostat vəzi xərçənginə qarşı güclü vasitədir. Tərkibindəki karotinoidlər şiş hüceyrələrinin inkişafının qarşısını almaqla yanaşı onların öz-özünü məhv etməsinə səbəb olur. İspanaq ürək xəstəliklərindən qoruyur. Sərbəst radikalları bədəndən uzaqlaşdıraraq yaşlanmağı gecikdirir. İspanağı həm bişmiş halda, müxtəlif xörəklərə əlavə etməklə, həm də çiy halda yemək olar. Salatlarda istifadə etmək də xeyirlidir.

**Məlahət**

## Hökumət almanları sevindirəcək
### Sürət qatarlarında gediş biletlərini cəmi 14.50 avroya almaq mümkün olacaq



**Məlum olduğu kimi, keçən il aprel ayında Ukraynada müharibənin başlanması ilə əlaqədar Almaniya hökuməti yaxınlaşmaqda olan enerji böhranının nəzərə alaraq öz vətəndaşlarını ictimai nəqliyyatdan daha çox, şəxsi avtomobillərdən isə az hallarda istifadə etməyə təşviq etdi.**

Yay aylarında nəqliyyatın bütün növləri, o cümlədən uzaq məsafələrə gedən qatarlar üçün vahid biletlər tətbiq edildi. Bu biletlərin qiyməti, o vaxt Azərtac-ın xəbər verdiyi kimi, ayda cəmi 9 avro idi.

Görünür, hökumət bu il də almanları sevindirməyi qərara alıb. "Döyçe Ban" dəmiryolu operatoru səyahətçilərin kiçik qrupları üçün yeni təklif edib: sürət qatarlarında gediş biletlərini gülünc qiymətə - cəmi 14.50 avroya almaq mümkün olacaq.

Bu praktika may ayından tətbiq ediləcək. İctimai nəqliyyat sərnişinləri, öz seçimlərindən asılı olaraq ayda 49 avro və ya bir gediş üçün 14.50 avro ödəməklə bütün ölkə boyu səyahət edə biləcəklər. Nəzəri baxımdan bu biletlə Frayburqdan Hamburqa qədər getmək olar. Lakin sözügedən təklif hələ uzaq məsafəli qatarlara şamil edilmədiyi üçün gediş-gəlişin xeyli vaxt tələb edəcəyini gözləmək olar. Amma bu müvəqqətidir. Gözlənildiyinə görə uzaq məsafəli qatarlar da tezliklə bu sxemə daxil ediləcək. Bu təklif 3 və daha çox adamdan ibarət qruplara aiddir. Ona görə, əgər almanlar öz dostları və ya ailəsi birgə səfərə çıxmağı planlaşdırırlarsa, gediş biletlərini daha ucuz ala biləcəklər. Qeyd edək ki, yaşı 14-dən aşağı olan uşaqlar üçün gediş haqqı ödənilmir.